1(j) yarımbəndi Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun tövsiyələrindəki "maliyyə institutları" anlayışı ilə oxşar qaydada şərh ediləcəkdir.

k) "**Müəyyən olunmuş Sığorta Şirkəti**" dedikdə, həyatın yığım sığortası və ya annuitet sığortası müqaviləsini bağlayan və ya belə müqavilələr üzrə ödənişlər etmək öhdəliyini daşıyan sığorta təşkilatı (yaxud sığorta şirkətinin daxil olduğu holdinq şirkəti) başa düşülür.

l) "**Azərbaycan Respublikasının Maliyyə İnstitutu**" dedikdə, (i) Azərbaycan Respublikasının rezidenti olan Maliyyə İnstitutu (lakin bu cür Maliyyə İnstitutunun Azərbaycan Respublikasından kənarda yerləşən hər hansı filialı istisna olmaqla) və (ii) Azərbaycan Respublikasının rezidenti olmayan Maliyyə İnstitutunun Azərbaycan Respublikasında yerləşən hər hansı filialı başa düşülür.

m) **"Tərəfdaş Yurisdiksiyanın Maliyyə İnstitutu"** dedikdə, (i) Tərəfdaş Yurisdiksiyada təsis edilmiş istənilən Maliyyə İnstitutu (lakin belə Maliyyə İnstitutunun Tərəfdaş Yurisdiksiyadan kənarda yerləşən hər hansı filialı istisna olmaqla) və (ii) Tərəfdaş Yurisdiksiyada təsis edilməmiş Maliyyə İnstitutunun Tərəfdaş Yurisdiksiyada yerləşən istənilən filialı başa düşülür.

n) **"Hesabat verən Maliyyə İnstitutu"** dedikdə, kontekstdən asılı olaraq Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu və ya ABŞ-ın Hesabat verən Maliyyə İnstitutu nəzərdə tutulur.

o) **"Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu"** dedikdə, Azərbaycan Respublikasının Hesabat verməyən Maliyyə İnstitutlarından başqa Azərbaycan Respublikasının istənilən digər Maliyyə İnstitutları başa düşülür.

p) **"ABŞ-ın Hesabat Verən Maliyyə İnstitutu"** dedikdə, (i) Birləşmiş Ştatların rezidenti olan hər hansı Maliyyə İnstitutu (lakin belə Maliyyə İnstitutunun Birləşmiş Ştatlardan kənarda yerləşən hər hansı filialı istisna olmaqla) və (ii) Birləşmiş Ştatların rezidenti olmayan Maliyyə İnstitutunun Birləşmiş Ştatlarda yerləşən hər hansı filialı nəzərdə tutulur, bu şərtlə ki, həmin Maliyyə İnstitutu və ya filial, bu Sazişin 2-ci maddəsinin 2(b) yarımbəndinə əsasən barəsində məlumat verilməsi tələb olunan gəlir üzərində nəzarət imkanına malik olsun, belə gəliri qəbul etsin və ya saxlasın.

q) **"Azərbaycan Respublikasının Hesabat Verməyən Maliyyə İnstitutu"** dedikdə, 2 saylı Əlavədə Azərbaycan Respublikasının Hesabat Verməyən Maliyyə İnstitutu kimi təsvir edilmiş və ya bu Saziş imzalandığı tarixdə qüvvədə olan ABŞ-ın Xəzinədarlıq Departamentinin qaydalarına əsasən başqa cür əməl edən hesab olunan Xarici Maliyyə İnstitutu (**FFI**) və ya imtiyazlı benefisiar hesab olunan Azərbaycan Respublikasının hər hansı Maliyyə İnstitutu və ya Azərbaycan Respublikasının rezidenti olan digər müəssisə nəzərdə tutulur.

r) **"İştirakçı olmayan Maliyyə İnstitutu"** dedikdə, ABŞ-ın Xəzinədarlıq Departamentinin qaydalarında verilən "İştirakçı olmayan xarici maliyyə institutu" anlayışı ilə eyni məna daşıyır, lakin ona Azərbaycan Respublikasının və ya Tərəfdaş Yurisdiksiyanın bu Sazişin 5-ci maddəsinin 2(b) yarımbəndinə və ya Birləşmiş Ştatlarla Tərəfdaş Yurisdiksiya arasında imzalanmış sazişin müvafiq müddəasına uyğun olaraq İştirakçı olmayan Maliyyə İnstitutları hesab edilən maliyyə institutlarından başqa maliyyə institutları aid edilmir.

s) **"Maliyyə hesabı"** dedikdə, Maliyyə İnstitutlarında olan hesab başa düşülür və bu hesablara aşağıdakılar daxildir:

(1) Yalnız İnvestisiya təşkilatı olduğuna görə Maliyyə İnstitutu hesab edilən müəssisələrə münasibətdə, Maliyyə İnstitutunun nizamnamə kapitalı və ya borc öhdəliklərində pay (tənzimlənən qiymətli kağızlar bazarında aktiv ticarət olunan paylar istisna olmaqla);

(2) Bu Maddənin 1(s)(1) yarımbəndində göstərilməyən digər Maliyyə İnstitutuna münasibətdə, həmin Maliyyə İnstitutunun nizamnamə kapitalında və ya borc öhdəliklərində pay (tənzimlənən qiymətli kağızlar bazarında aktiv ticarət olunan paylar istisna olmaqla), bu şərtlə ki, (i) nizamnamə kapitalında və ya borc öhdəliklərində payın dəyəri, birbaşa olaraq və ya dolayısı ilə, ABŞ mənbəli vergi tutulan ödənişlərin yaranmasına səbəb olan aktivlərə istinadən müəyyən edilir və (ii) pay bu Sazişə əsasən hesabatların verilməsindən yayınmaq məqsədilə müəyyən edilmişdirsə; və

(3) Fiziki şəxslərlə bağlanan, investisiya ilə əlaqədar olmayan, köçürülməyən və 2 saylı Əlavədə Maliyyə Hesabının anlayışına daxil olmayan hesab üzrə nəzərdə tutulmuş pensiya və ya əlilliyə görə müavinətləri nəzərdə tutulan ömürlük annuitet sığortası istisna olmaqla, Maliyyə İnstitutu tərəfindən bağlanılan və ya icra edilən hər hansı həyatın yığım sığortası və annuitet sığortası müqavilələri.

Yuxarıdakılara baxmayaraq, "Maliyyə Hesabı" anlayışına 2 saylı Əlavədəki Maliyyə Hesabı anlayışından istisna edilmiş hesablar aid edilmir. Bu Sazişin məqsədləri baxımından, iştirak paylarının ticarət həcmi davamlı olaraq əhəmiyyət kəsb edən səviyyədə qalırsa, həmin iştirak payları "aktiv ticarət olunan" iştirak payı hesab olunur. "Tənzimlənən qiymətli kağızlar bazarı" dedikdə, həmin bazarın yerləşdiyi ölkənin hökumət orqanı tərəfindən rəsmi olaraq tanınan və nəzarət olunan və səhmlər üzrə illik əhəmiyyətli həcmdə ticarətin baş tutduğu birja başa düşülür. Sahibi (vasitəçi qismində çıxış edən maliyyə institutları istisna olmaqla) Maliyyə İnstitutlarının reyestr kitablarında qeydiyyata alınmış iştirak payları 1(s) yarımbəndinin məqsədləri baxımından "aktiv ticarət olunan" iştirak payları hesab olunmur və onlara Maliyyə Hesabları kimi baxılır. Əvvəlki cümlə, Maliyyə İnstitutlarının kitablarında ilk olaraq 1 iyul 2014-cü il tarixdən əvvəl qeydiyyata alınmış iştirak paylarına şamil edilmir və Maliyyə İnstitutlarının əvvəlki cümləni 1 iyul 2014-cü il tarixdə və ya daha sonra qeydiyyata alınmış iştirak paylarına münasibətdə 1 yanvar 2016-cı il tarixdən əvvəl tətbiq etməsi tələb olunmur.

t) "**Bank hesabı**" anlayışı kommersiya hesabı, cari hesab, əmanət hesabı, müddətli depozit hesabı anlayışlarını və ya depozit sertifikatı, əmanət sertifikatı, investisiya sertifikatı, borc sertifikatı, və ya maliyyə institutları tərəfindən bank işi və ya analoji fəaliyyətin normal gedişində aparılan digər analoji alətlə təsdiq olunan hesabları da əhatə edir. Bank hesablarına, həmçinin

zəmanətli investisiya müqaviləsinə və ya kredit faizlərinin ödənilməsini nəzərdə tutan digər müqaviləyə əsasən sığortaçılar tərəfindən saxlanılan məbləğlər də aiddir.

u) "**Depozitar hesabı**" dedikdə investisiya məqsədilə əldə olunmuş maliyyə alətlərinin və ya müqavilələrin (o cümlədən, lakin bunlarla məhdudlaşmamaqla, şirkətdəki səhm və ya paylar, notlar, istiqrazlar, təminatsız borc öhdəlikləri və ya başqa borcluluq dəlili, valyuta və ya əmtəə əməliyyatları, kredit defolt svopları, qeyri-maliyyə indeksinə əsaslanan svoplar, şərti əsas məbləğ müqavilələri, sığorta və ya annuitet müqavilələri, opsiyonlar və ya digər törəmə alətlər) digər şəxslərin xeyrinə saxlanıldığı hesab (Sığorta müqaviləsi və Annuitet sığortası müqaviləsi üzrə hesablar istisna olmaqla) nəzərdə tutulur.

v) "**Nizamnamə kapitalında pay**" dedikdə, təşkilati-hüquqi forması təsərrüfat ortaqlığı olan maliyyə institutlarına münasibətdə, ortaqlığın nizamnamə kapitalında və ya mənfəətində pay nəzərdə tutulur. Təşkilati-hüquqi forması trast olan maliyyə institutlarına münasibətdə, kapitalda iştirak payının hamısının və ya bir qisminin sahibi trastın təsisçisi və ya faydalanan şəxsi və ya trast üzərində faktiki nəzarəti həyata keçirən şəxs hesab olunur. Müəyyən olunmuş ABŞ şəxsi məcburi bölüşdürülmə zamanı birbaşa və ya dolayısı ilə (məsələn: nümayəndə vasitəsilə) pay almaq hüququna malikdirsə və ya könüllü bölüşdürülmə zamanı birbaşa və ya dolayısı ilə pay ala bilərsə, həmin müəyyən olunmuş ABŞ şəxsi xarici trastın faydalanan şəxsi hesab olunur.

w) "**Sığorta müqaviləsi**" dedikdə ölüm, xəstəlik və ya qəzanın baş verməsi, öhdəliyin və ya əmlak riskinin yaranması kimi sığorta hadisələrinin baş verməsi halında, sığortaçı tərəfindən sığorta məbləğinin ödənilməsini nəzərdə tutan müqavilə (Annuitet sığortası müqaviləsi istisna olmaqla).

x) "**Annuitet sığortası müqaviləsi**" dedikdə sığortaçının bir və ya daha çox fiziki şəxsin gözlənilən ömür uzunluğuna əsasən müəyyən edilən müddət ərzində ödənişlər etməsini nəzərdə tutan müqavilə başa düşülür. Bu anlayış həmçinin imzalanmış olduğu ölkənin qanunlarına, qaydalarına və işgüzar adətlərinə əsasən annuitet müqaviləsi hesab edilən və sığortaçının müəyyən müddət ərzində ödənişlər etməyə razılıq verməsini nəzərdə tutan müqavilələri əhatə edir.

y) "**Həyatın yığım sığortası müqaviləsi**" dedikdə, 50 000 ABŞ dollarından yüksək olan Nağd Pul Dəyərinin ödənilməsini nəzərdə tutan sığorta müqaviləsi (iki sığorta şirkəti arasında bağlanmış təkrar sığorta müqavilələri istisna olmaqla) nəzərdə tutulur.

z) **"Nağd Pul Dəyəri"** dedikdə, aşağıdakı məbləğlərdən miqdarca daha çox olanı başa düşülür (i) müqaviləyə xitam verilərkən və ya müqavilə ləğv edilərkən sığortalının almaq hüququ olduğu məbləğ (məbləğ müqaviləyə xitam verilməsinə görə tutulan haqq və ya sığortalının sığortaçıdan aldığı borc səbəbindən azaldılmadan hesablanmalıdır), və (ii) sığortalının müqaviləyə əsasən borc almaq hüququ olduğu məbləğ. Yuxarıda qeyd edilənlərə baxmayaraq, Nağd Pul Dəyərinə sığorta müqaviləsinə əsasən ödənilən aşağıdakı ödənişlər daxil deyil:

(1) şəxsin sağlamlığına vurulmuş zərərə və ya xəstəliyə görə müavinət, yaxud sığorta hadisəsinin baş verməsinə görə yaranan iqtisadi itkinin əvəzinin ödənilməsini nəzərdə tutan hər hansı digər müavinət;

(2) Sığortanın ləğvi və ya müddətinin başa çatması, Sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə riskə məruz qalma dərəcəsinin azalmasına görə və ya poçtla göndərişə düzəliş edilməsi və ya buna oxşar səhvə görə sığorta haqqının yenidən müəyyən edilməsindən irəli gələn, Sığorta Müqaviləsinə əsasən (həyatın sığortası haqqında müqavilə istisna olmaqla) əvvəllər ödənilmiş sığorta haqqı üzrə sığorta olunana ödənilən kompensasiya; və ya

(3) əlaqəli müqavilə və ya iştirak edən qrupun sığorta (anderrayting) təcrübəsinə əsaslanmaqla sığorta olunana ödənilən dividend.

aa) **"Hesabat verilməli Hesab"** dedikdə, kontekstdən asılı olaraq ABŞ-ın və ya Azərbaycan Respublikasının Hesabat verilməli Hesabı başa düşülür.

bb) **"Azərbaycan Respublikasının Hesabat verilməli Hesabı"** dedikdə ABŞ-ın Hesabat Verən Maliyyə İnstitutunda olan Maliyyə Hesabı nəzərdə tutulur, əgər: (i) Bank hesabı üzrə, hesab Azərbaycan Respublikasının rezidenti olan fiziki şəxsə məxsusdursa və istənilən verilmiş təqvim ilində bu cür hesaba 10 ABŞ dolları məbləğindən çox faiz ödənilirsə; yaxud (ii) Bank hesabı olmayan maliyyə hesabı üzrə, Hesab Sahibi Azərbaycan Respublikasının rezidentidir, o cümlədən vergi məqsədləri üçün Azərbaycan Respublikasının rezidenti olduğunu təsdiq edən və ABŞ Daxili Gəlirlər Məcəlləsinin A altbölməsinin 3-cü Fəsli və ya F altbölməsinin 61-ci Fəslinə əsasən hesabat verilməli ABŞ mənbəli gəlirləri ödənilən və ya kreditləşdirilən təşkilatdır.

cc) **"ABŞ-ın Hesabat verilməli Hesabı"** termini Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutunda olan və Müəyyən olunmuş bir və ya bir neçə ABŞ Şəxsinə və ya Müəyyən olunmuş ABŞ Şəxsi hesab olunan bir və ya daha çox Nəzarət edən şəxslərə malik qeyri-ABŞ Müəssisəsinə məxsus olan

Maliyyə Hesabını nəzərdə tutur. Yuxarıda göstərilənlərə baxmayaraq, əgər Hesab 1 saylı Əlavədə nəzərdə tutulan lazımi yoxlama prosedurundan keçdikdən sonra ABŞ-ın Hesabat verilməli Hesabı kimi müəyyən olunmadıqda, bu cür hesab ABŞ-ın Hesabat verilməli Hesabı sayılmır.

dd) **"Hesab Sahibi"** termini hesabın olduğu Maliyyə İnstitutu tərəfindən Maliyyə Hesabının sahibi kimi siyahıya daxil edilmiş və müəyyənləşdirilmiş şəxsi bildirir. Digər şəxslərin xeyrinə və ya hesabına agent, qiymətli kağızların saxlayıcısı, nominal saxlayıcı, imzalayan şəxs, investisiya məsləhətçisi və ya vasitəçi qismində Maliyyə Hesabına malik olan və Maliyyə İnstitutu olmayan şəxs bu Sazişin məqsədləri üçün hesab sahibi sayılmır, hesab sahibi qismində isə yuxarıda göstərilən digər şəxslər çıxış edirlər. Əvvəlki cümlənin məqsədləri üçün "Maliyyə İnstitutu" dedikdə, ABŞ ərazisində təşkil edilən və ya qeydiyyata alınan Maliyyə İnstitutu nəzərdə tutulmur. Həyatın yığım sığortası və ya Annuitet sığortası müqaviləsi üzrə Nağd Pul Dəyərini əldə etmək və ya müqavilədə faydalanan şəxsi dəyişmək hüququ olan şəxs Hesab Sahibi sayılır. Heç bir şəxs Nağd Pul Dəyərini əldə edə bilməzsə və ya faydalanan şəxsi dəyişə bilməzsə, müqavilədə sahib kimi göstərilən və ya müqavilənin şərtlərinə əsasən ödənişi almaq hüququ verilmiş şəxs Hesab Sahibi sayılır. Həyatın yığım sığortası və ya Annuitet sığortası müqaviləsinin icra edilməsi vaxtı çatdıqda, müqaviləyə əsasən ödəniş almaq hüququna malik olan hər bir şəxs Hesab Sahibi hesab olunur.

ee) **"ABŞ Şəxsi"** dedikdə ABŞ vətəndaşı və ya rezidenti olan fiziki şəxs, ABŞ-da və ya ABŞ-ın, yaxud onun hər hansı ştatının qanunvericiliyinə əsasən təşkil edilən ortaqlıq və ya korporasiya, əgər (i) Birləşmiş Ştatlardakı məhkəmə, qüvvədə olan qanunvericiliyə əsasən trastın idarə edilməsi ilə bağlı, mahiyyət etibarilə bütün məsələlərə aid əmrlər və ya qərarlar çıxarmaq səlahiyyətinə malikdirsə, və (ii) bir və ya bir neçə ABŞ şəxsi trastın bütün əhəmiyyətli qərarlarını vermək, yaxud ABŞ vətəndaşı və ya rezidenti olmuş vəfat etmiş şəxsin miras əmlakını idarə etmək səlahiyyətinə malikdirsə, trastı nəzərdə tutur. Bu 1 (ee) bəndi ABŞ-ın Daxili Gəlirlər Məcəlləsinə uyğun olaraq şərh olunur.

ff) **"Müəyyən olunmuş ABŞ Şəxsi"** termini aşağıdakılardan fərqli ABŞ Şəxsini nəzərdə tutur: (i) payları müntəzəm şəkildə bir və ya bir neçə tənzimlənən qiymətli kağızlar bazarında dövriyyədə olan korporasiya; (ii) korporasiya kimi (i) bəndində təsvir olunan, ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471(e)(2) bölməsində müəyyən olunduğu kimi, geniş qarşılıqlı asılılıqda olan eyni qrupun üzvü olan hər hansı korporasiya; (iii) Birləşmiş Ştatlar və ya ona bütünlüklə məxsus olan qurum və ya agentlik; (iv) Birləşmiş Ştatların hər hansı Ştatı, hər hansı ABŞ Ərazisi, onlardan hər hansı birinin inzibati-ərazi vahidi, yaxud onlardan hər hansı birinə və ya bir neçəsinə bütövlüklə məxsus olan qurum və ya

agentlik; (v) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 501(a) bölməsinə və ya ABŞ Daxili Gəlirlər Məcəlləsinin 7701(a)(37) bölməsinə əsasən müəyyən edilən fərdi pensiya planına əsasən vergidən azad olunmuş hər hansı təşkilat; (vi) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 581-ci bölməsinə əsasən müəyyən edilən hər hansı bank; (vii) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 856-cı bölməsinə əsasən müəyyən edilən daşınmaz əmlak üzrə investisiya trastı; (viii) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 851-ci bölməsinə əsasən müəyyən edilən hər hansı nəzarət edilən investisiya şirkəti və ya 1940-cı il tarixli (15 U.S.C. 80a-64) İnvestisiya Şirkətləri haqqında Qanuna əsasən ABŞ-ın Qiymətli Kağızlar və Birja üzrə Komissiyasında qeydiyyata alınan hər hansı qurum; (ix) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 584(a) bölməsinə əsasən müəyyən edilən hər hansı ümumi trast fondu; (x) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 664(c) bölməsinə əsasən vergidən azad olunan və ya ABŞ Daxili Gəlirlər Məcəlləsinin 4947(a)(1) bölməsində təsvir olunan hər hansı trast; (xi) Birləşmiş Ştatların və ya hər hansı Ştatın qanunvericiliyinə əsasən qiymətli kağızlar, mallar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar üzrə diler kimi qeydiyyata alınmış şəxslər (o cümlədən şərti əsas məbləğ üzrə müqavilələr, fyuçerslər, forvard əqdləri və opsiyalar); və (xii) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 6045(c) bölməsinə əsasən müəyyən edilən broker; və ya (xiii) ABŞ Daxili Gəlirlər Məcəlləsinin 403(b) bölməsində və ya 457(g) bölməsində təsvir olunmuş plana uyğun olaraq vergidən azad olmuş hər hansı trast.

gg) "**Müəssisə**" termini hər hansı hüquqi şəxsi və ya trast kimi təşkilati-hüquqi qurumu nəzərdə tutur.

hh) "**Qeyri-ABŞ Müəssisəsi**" dedikdə, ABŞ Şəxsi olmayan Müəssisə nəzərdə tutulur.

ii) "**ABŞ mənbəli vergi tutulmalı ödəniş**" dedikdə Birləşmiş Ştatlar daxilindəki mənbələrdən faizlərin (o cümlədən hər hansı ilkin endirimin), dividendlərin, icarə haqlarının, əmək haqlarının, mükafatların, rentaların, kompensasiyaların, muzdun, məvaciblərin, habelə başqa sabit və ya müəyyən edilə bilən illik və ya dövri gəlirin, qazancın və ya mənfəətlərin ödənişi nəzərdə tutulur. Göstərilənlərə baxmayaraq, ABŞ mənbəli vergi tutulmalı ödənişə ABŞ-ın Xəzinədarlıq Departamentinin müvafiq qaydalarında mənbədə vergi tutulmalı ödəniş kimi nəzərdə tutulmayan hər hansı ödəniş daxil deyil.

jj) Əgər Müəssisələrdən biri digər Müəssisənin nəzarəti altındadırsa, yaxud hər iki Müəssisə ümumi nəzarət altındadırsa, o halda bir Müəssisə digər Müəssisənin "**Əlaqəli Müəssisə**"si hesab edilir. Bu məqsədlə, nəzarət dedikdə, Müəssisədə səsvermə hüququnun və ya Müəssisənin aktivlərinin dəyərinin 50 faizdən çoxuna birbaşa və ya dolayısı ilə sahiblik başa düşülür. Yuxarıda göstərilənlərə

baxmayaraq, iki Müəssisə ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471(e)(2) bölməsində müəyyən olunduğu kimi geniş qarşılıqlı asılılıqda olan qrup üzvləri olmadığı təqdirdə Azərbaycan Respublikası Müəssisələrdən hər hansı birini digər Müəssisənin "Əlaqəli Müəssisə"si hesab etməyə bilər.

kk) **"ABŞ-da olan VÖEN"** termini ABŞ federal vergi ödəyicisinin identifikasiya nömrəsini nəzərdə tutur.

ll) **"Azərbaycan Respublikasında olan VÖEN"** termini Azərbaycan Respublikası vergi ödəyicisinin identifikasiya nömrəsini nəzərdə tutur.

mm) **"Nəzarət edən şəxslər"** dedikdə hər hansı hüquqi şəxs üzərində nəzarəti həyata keçirən fiziki şəxslər nəzərdə tutulur. Trast üzrə, bu cür termin trastın təsisçisini, etibar edilmiş mülkiyyətçiləri, himayəçini (əgər vardırsa), benefisiarlar və ya benefisiarlar qismində təsnifləşdirilmiş şəxsləri, habelə trast üzərində həqiqi effektiv nəzarəti həyata keçirən hər hansı başqa fiziki şəxsi və trastdan fərqli təşkilati-hüquqi qurum üzrə isə, bu termin yuxarıda göstərilənlərə bərabər və ya oxşar mövqelərdə olan şəxsləri nəzərdə tutur. "Nəzarət edən şəxslər" termini Maliyyə Tədbirləri üzrə İşçi Qrupun tövsiyələrinə uyğun şəkildə şərh olunur.

2. Bu Müqavilədə başqa cür müəyyən olunmayan istənilən termin, əgər kontekstdən başqa cür başa düşülmürsə və ya Səlahiyyətli Orqanlar ümumi məna barədə razılığa gəlməmişdirsə (yerli qanunların yol verdiyi həddə), həmin vaxt bu Sazişi tətbiq edən Tərəfin qanunvericiliyinə əsasən mövcud mənanı ifadə edir və həmin Tərəfin digər qanunvericiliyinə əsasən bu terminə başqa məna verildikdə vergi qanunvericiliyinə əsasən həmin terminə verilmiş məna üstün qüvvəyə malik olur.

Maddə 2

Hesabat verilməli Hesablarla bağlı məlumatları əldə etmək və mübadilə etmək öhdəlikləri

1. Bu Sazişin 3-cü Maddəsinin müddəaları nəzərə alınmaqla, Tərəflərdən hər biri Hesabat verilməli Hesablarla bağlı bu Maddənin 2-ci bəndində göstərilən məlumatları əldə edəcək və hər il bu məlumatları Konvensiyanın müddəalarına uyğun olaraq avtomatik qaydada digər Tərəflə mübadilə edəcəkdir.

2. Əldə olunmalı və mübadilə edilməli olan məlumatlar aşağıdakılardır:

a) Azərbaycan Respublikası üzrə, Azərbaycan Respublikasının hər bir Hesabat verən Maliyyə İnstitutunun ABŞ-ın hər bir Hesabat verilməli Hesabı ilə bağlı:

(1) bu cür hesabın Hesab Sahibi olan hər bir Müəyyən olunmuş ABŞ Şəxsinin adı, ünvanı və ABŞ-da olan VÖEN-i və Hesab Sahibi Qeyri-ABŞ Müəssisəsi olduqda və 1 saylı Əlavədə müəyyən edilmiş lazımi yoxlama prosedurlarının həyata keçirilməsi nəticəsində həmin Müəssisənin bir və ya daha çox Nəzarət edən şəxslərinin Müəyyən olunmuş ABŞ Şəxsi olduğu aşkar edildikdə, bu cür Müəssisənin və hər bir bu cür Müəyyən olunmuş ABŞ Şəxsinin adı, ünvanı və ABŞ-da olan VÖEN-i (əgər varsa);

(2) hesab nömrəsi (hesab nömrəsi olmadıqda, funksional ekvivalenti);

(3) Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutunun adı və identifikasiya nömrəsi;

(4) Müvafiq təqvim ili və ya başqa müvafiq hesabat dövrünün sonuna və ya əgər hesab bu cür il ərzində bağlanırsa, bilavasitə bağlanmazdan əvvəl hesabın qalığı və ya dəyəri (o cümlədən Həyatın yığım sığortası və ya Annuitet sığorta müqaviləsi üzrə Nağd Pul Dəyəri və ya qaytarılan məbləğ);

(5) hər hansı Depozitar Hesabı üzrə:

(A) Hesabda saxlanılan aktivlər ilə bağlı alınmış ümumi faiz məbləği, ümumi dividend məbləği və digər gəlirlərin ümumi məbləği (hər bir halda təqvim ilində və ya başqa müvafiq hesabat dövründə hesaba (və ya hesabla bağlı) ödənilmiş və ya hesablanmış); və

(B) Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutunun Hesab Sahibi üçün depozitar, broker, nominal saxlayıcı və ya agenti kimi çıxış etdiyi aktivin satılmasından və ya girovdan azad olunmasından əldə olunan və təqvim ili və ya başqa müvafiq hesabat dövrü ərzində hesaba ödənilmiş və ya hesablanmış ümumi gəlirlər;

(6) Hər hansı Bank hesabı üzrə, təqvim ilində və ya başqa müvafiq hesabat dövrü ərzində hesaba ödənilmiş və ya hesablanmış faizlərin ümumi məbləği; və

(7) Bu Maddənin 2(a)(5) və ya 2(a)(6) yarımbəndlərində göstərilməyən digər bütün hesablar üzrə, təqvim ili və ya başqa müvafiq hesabat dövrü ərzində Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutunun öhdəlik götürdüyü və ya borclu olduğu hesabla bağlı Hesab Sahibinə

ödənilmiş və ya hesablanmış ümumi məbləğ, o cümlədən, təqvim ili və ya başqa müvafiq hesabat dövrü ərzində Hesab Sahibinə edilmiş geri qaytarılan ödənişlərin ümumi məbləği.

b) Birləşmiş Ştatlar üzrə, ABŞ-ın Hesabat verən hər bir Maliyyə İnstitutu tərəfindən Azərbaycan Respublikasının hər bir Hesabat verilməli Hesabı ilə bağlı:

(1) Azərbaycan Respublikasının rezidenti olan hər bir Hesab sahibinin adı, ünvanı və Azərbaycan Respublikasında olan VÖEN-i;

(2) hesab nömrəsi (hesab nömrəsi olmadıqda, funksional ekvivalenti);

(3) ABŞ-ın Hesabat verən Maliyyə İnstitutunun adı və identifikasiya nömrəsi;

(4) Bank hesabı üzrə ödənilmiş faizlərin ümumi məbləği;

(5) Hesaba ödənilmiş və ya hesablanmış ABŞ mənbəli dividendlərin ümumi məbləği; və

(6) ABŞ Daxili Gəlirlər Məcəlləsinin A altbölməsinin 3-cü fəslinə və ya F altbölməsinin 61-ci fəslinə əsasən hesabat verilməli hədd çərçivəsində hesaba ödənilmiş və ya hesablanmış ABŞ mənbəli hər hansı digər gəlirlərin ümumi məbləği.

Maddə 3
Məlumat mübadiləsinin aparılma müddəti və qaydası

1. Bu Sazişin 2-ci Maddəsində nəzərdə tutulmuş məlumat mübadiləsi öhdəliyinin məqsədləri baxımından ABŞ-ın Hesabat verilməli Hesabı ilə bağlı edilmiş ödənişlərin məbləği və növü Azərbaycan Respublikasının vergi qanunvericiliyinin prinsiplərinə uyğun olaraq və Azərbaycan Respublikasının Hesabat verilməli Hesabı ilə bağlı edilmiş ödənişlərin məbləği və növü isə ABŞ federal gəlir vergisi qanunvericiliyinin prinsiplərinə uyğun olaraq müəyyən oluna bilər.

2. Bu Sazişin 2-ci Maddəsində nəzərdə tutulmuş məlumat mübadiləsi öhdəliyinin məqsədləri baxımından mübadilə edilən məlumatlarda hər bir məbləğin ifadə olunduğu valyuta əks olunmalıdır.

3. Bu Sazişin 2-ci Maddəsinin 2-ci bəndində göstərilən məlumatlar aşağıdakı hallar istisna olmaqla, 2014-cü il və bütün sonrakı illər üzrə əldə edilməli və mübadilə olunmalıdır:

a) Azərbaycan Respublikası tərəfindən:

(1) 2014-cü il üzrə yalnız bu Sazişin 2-ci Maddəsinin 2(a)(1) – 2(a)(4) yarımbəndlərində göstərilən məlumatlar əldə olunmalı və mübadilə edilməlidir;

(2) 2015-ci il üzrə bu Sazişin 2-ci Maddəsinin 2(a)(5)(B) yarımbəndində göstərilən ümumi gəlirlər istisna olmaqla, bu Sazişin 2-ci Maddəsinin 2(a)(1) – 2(a)(7) yarımbəndlərində göstərilən məlumatlar əldə olunmalı və mübadilə edilməlidir;

(3) 2016-cı il və bundan sonra gələn illər üzrə bu Sazişin 2-ci Maddəsinin 2(a)(1) – 2(a)(7) yarımbəndlərində göstərilən məlumatlar əldə olunmalı və mübadilə edilməlidir;

b) Birləşmiş Ştatlar tərəfindən, 2014-cü il və bundan sonra gələn illər üzrə bu Sazişin 2-ci Maddəsinin 2(b) yarımbəndində müəyyən edilmiş bütün məlumatlar əldə olunmalı və mübadilə edilməlidir.

4. Bu Maddənin 3-cü bəndinin müddəalarına baxmayaraq, 30 iyun 2014-cü il tarixinə Hesabat Verən Maliyyə İnstitutunda olan hər bir Hesabat verilməli Hesab üzrə vergi ödəyicisinin identifikasiya nömrəsi Hesabat Verən Maliyyə İnstitutunun uçot sənədlərində olmadığı təqdirdə, bu Sazişin 6-cı Maddəsinin 3-cü bəndi nəzərə alınmaqla, Tərəflərdən bu cür şəxsin müvafiq olaraq Azərbaycan Respublikası və ya ABŞ-da olan VÖEN-i barədə məlumatların əldə edilməsi və mübadilə edilən məlumatlara daxil edilməsi tələb olunmur. Bu halda, Hesabat Verən Maliyyə İnstitutunun uçot sənədlərində müvafiq şəxsin doğum tarixi barədə məlumat olduqda, Tərəflər bu məlumatı əldə etməli və mübadilə edilən məlumatlara daxil etməlidirlər.

5. Bu Maddənin 3-cü və 4-cü bəndlərinə müvafiq olaraq, bu Sazişin 2-ci maddəsində göstərilən məlumatlar, bu məlumatların aid olduğu təqvim ili başa çatdıqdan sonra doqquz ay müddətində verilməlidir.

6. Azərbaycan Respublikasının və Birləşmiş Ştatların Səlahiyyətli Orqanları arasında Konvensiyanın 24-cü Maddəsində nəzərdə tutulan qarşılıqlı razılaşma proseduruna əsasən saziş bağlanmalı və ya razılaşma əldə edilməlidir, hansı ki:

a) bu Sazişin 2-ci Maddəsində göstərilən avtomatik məlumat mübadiləsi öhdəlikləri üzrə qaydaları müəyyən etməli;

b) bu Sazişin 5-ci Maddəsinin tətbiq edilməsi üçün tələb edilə biləcək qayda və

prosedurları müəyyən etməli; və

c) zəruri olduğu halda, bu Sazişin 4-cü Maddəsinin 1(b) yarımbəndinə əsasən verilən məlumatların mübadiləsi üçün qaydalar müəyyən etməlidir.

7. Mübadilə edilən bütün məlumatlarla bağlı Konvensiyada nəzərdə tutulmuş konfidensiallıq və başqa təhlükəsizlik tələblərinə, o cümlədən həmin məlumatlardan istifadəni məhdudlaşdıran müddəalara əməl edilməlidir.

8. Bu Saziş qüvvəyə mindikdən sonra hər bir Səlahiyyətli Orqan digər Səlahiyyətli Orqanın yurisdiksiyasının (i) Sazişə uyğun olaraq alınan məlumatların konfidensiallığının qorunmasını və yalnız vergi məqsədləri üçün istifadəsini təmin etmək üçün zəruri olan təhlükəsizlik tədbirlərinə və (ii) effektiv mübadilə əlaqələri üçün infrastrukturuna (məlumat mübadiləsinin vaxtında aparılmasını, dəqiqliyini və məxfiliyini təmin etmək üçün müəyyənləşdirilmiş proseslər, effektiv və etibarlı məlumat ötürmə vasitələri, mübadilələr və ya mübadilə üçün sorğularla bağlı məsələlərin və ya problemlərin təxirəsalınmaz şəkildə həll edilməsi və bu Sazişin 5-ci Maddəsinin müddəalarının həyata keçirilməsi üçün göstərilən imkanlar daxil olmaqla) malik olduğuna qane olduğu təqdirdə, həmin Səlahiyyətli Orqana yazılı bildiriş verməlidir. Səlahiyyətli Orqanlar, 2015-ci ilin sentyabr ayına kimi hər iki yurisdiksiyanın bu cür təhlükəsizlik tədbirlərinə və infrastruktura malik olmasını müəyyən etmək üçün görüşməyə vicdanla səy göstərməlidirlər.

9. Tərəflərin bu Sazişin 2-ci Maddəsinə uyğun olaraq məlumatları əldə etmək və mübadilə etmək öhdəlikləri bu Maddənin 8-ci bəndində göstərilən yazılı bildirişlərin sonuncusunun tarixindən etibarən qüvvəyə minir. Yuxarıda qeyd olunanlara baxmayaraq, əgər Azərbaycan Respublikasının Səlahiyyətli Orqanı bu Maddənin 8-ci bəndində göstərilmiş təhlükəsizlik tədbirlərinin və infrastrukturunun ABŞ-da mövcud olmasından qane olarsa, lakin ABŞ-ın Səlahiyyətli Orqanı üçün Azərbaycan Respublikasında bu cür təhlükəsizlik tədbirlərinin və infrastrukturun olmasını müəyyən etməkdən ötrü əlavə vaxt tələb olunarsa, Azərbaycan Respublikasının bu Sazişin 2-ci Maddəsinə əsasən məlumatları əldə etmək və mübadilə etmək öhdəliyi bu Maddənin 8-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Səlahiyyətli Orqanı tərəfindən ABŞ-ın Səlahiyyətli Orqanına göndərilən yazılı bildirişin tarixindən qüvvəyə minir.

10. Bu Maddənin 9-cu bəndinə əsasən Sazişin 2-ci Maddəsi hər bir Tərəf üçün Sazişin qüvvəyə mindiyi gündən başlayan 12 aylıq dövr ərzində qüvvəyə minmədiyi təqdirdə, Sazişə xitam verilir.

Maddə 4
FATCA-nın Azərbaycan Respublikasının Maliyyə İnstitutuna tətbiqi

1. Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutlarının qiymətləndirilməsi. Əgər Azərbaycan Respublikası bu Sazişin 2-ci və 3-cü maddələrinə əsasən özünün Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu ilə bağlı öhdəliklərini icra edərsə və Azərbaycan Respublikasının hər bir Hesabat verən Maliyyə İnstitutu aşağıdakıları yerinə yetirərsə, həmin Hesabat verən Maliyyə İnstitutu ABŞ-ın Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinə müvafiq olaraq əməl edən kimi qiymətləndirilir və vergitutmaya məruz qalmır:

a) ABŞ-ın Hesabat verilməli Hesablarını müəyyən edir və hər il bu Sazişin 2-ci maddəsinin 2(a) yarımbəndində verilməsi tələb olunan məlumatları bu Sazişin 3-cü Maddəsində göstərilmiş vaxtda və qaydada Azərbaycan Respublikasının Səlahiyyətli Orqanına təqdim edirsə;

b) 2015-ci və 2016-cı illərin hər biri üçün Azərbaycan Respublikasının Səlahiyyətli Orqanına ödənişlər həyata keçirdiyi hər bir İştirakçı olmayan Maliyyə İnstitutunun adı və onlara edilmiş ödənişlərin ümumi məbləği barədə illik olaraq məlumat verirsə;

c) ABŞ Daxili Gəlirlər Xidmətinin FATCA üzrə qeydiyyat internet səhifəsində olan müvafiq qeydiyyat tələblərinə riayət edirsə;

d) Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu (i) ABŞ Daxili Gəlirlər Məcəlləsinin A altbaşlığının 3-cü fəslinə əsasən əsas vergitutma öhdəliyini üzərinə götürmüş ixtisaslaşdırılmış vasitəçi (ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1441-ci bölməsinin məqsədləri baxımından), (ii) vergi agenti funksiyasını yerinə yetirən xarici ortaqlıq (ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1441 və 1471-ci bölmələrinin məqsədləri baxımından), yaxud (iii) vergi agenti funksiyalarını yerinə yetirən xarici trast kimi fəaliyyət göstərdiyi halda (ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1441 və 1471-ci bölmələrinin məqsədləri baxımından), istənilən İştirakçı olmayan Maliyyə İnstitutuna edilən hər hansı ABŞ mənbəli Vergi tutulmalı Ödənişin 30 faiz dərəcəsini tutursa;

e) Bu Maddənin 1(d) yarımbəndində göstərilməyən və istənilən İştirakçı olmayan Maliyyə İnstitutuna hər hansı ABŞ mənbəli Vergi tutulmalı Ödənişlər edən və ya bu cür ödənişə münasibətdə vasitəçi qismində fəaliyyət göstərən Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu halında, həmin maliyyə institutu birbaşa bu cür ABŞ Mənbəli Vergi tutulmalı Ödəniş edən ödəyiciyə bu ödənişə münasibətdə verginin tutulması və hesabatın verilməsi üçün zəruri olan məlumatları bu cür ödənişi edən ödəyiciyə təqdim edirsə.

Yuxarıda göstərilənlərə baxmayaraq, bu 1-ci bəndin şərtlərinə uyğun gəlməyən Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu Daxili Gəlirlər Xidməti tərəfindən bu Sazişin

5-ci Maddəsinin 2(b) yarımbəndinə əsasən İştirakçı olmayan Maliyyə İnstitutu kimi qiymətləndirilməyənə qədər ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinə müvafiq olaraq ödəniş mənbəyində vergitutmaya məruz qalmayacaqdır.

2. **Əməl etməyən Hesablara münasibətdə qaydaların tətbiqinin dayandırılması.** Birləşmiş Ştatlar əməl etməyən hesab sahibinin hesabına münasibətdə ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471 və ya 1472-ci bölmələrinə əsasən Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutundan vergi tutmağı (ABŞ Daxili Vergilər Məcəlləsinin 1471(d)(6) bölməsində müəyyən olunduğu kimi) və ya bu hesabı bağlamağı tələb etməyəcək, bu şərtlə ki ABŞ-ın Səlahiyyətli Orqanı bu cür hesabla bağlı bu Sazişin 3-cü Maddəsinin müddəalarına müvafiq olaraq bu Sazişin 2-ci Maddəsinin 2(a) yarımbəndində verilən məlumatları əldə etsin.

3. **Azərbaycan Respublikasının Təqaüd Planlarına xüsusi yanaşma.** Birləşmiş Ştatlar, 2 saylı Əlavədə göstərilən Azərbaycan Respublikasının Təqaüd Planlarını ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci və 1472-ci bölmələrinin məqsədləri üçün müvafiq hallarda əməl edən hesab olunan Xarici Maliyyə İnstitutu və ya imtiyazlı benefisiar kimi qiymətləndirəcək. Bu məqsədlə, Azərbaycan Respublikasının təqaüd planına Azərbaycan Respublikasında təsis edilmiş və ya yerləşən və onun qanunvericiliyi ilə tənzimlənən Müəssisə, yaxud pensiya və ya yaşa görə müavinət verməyə və ya bu cür müavinətlərin verilməsinə görə gəlirlər əldə etməyə yönəlmiş və paylar, bölüşdürmə, hesabatlılıq, sponsorluq və vergitutma hissəsində qanunvericiliklə tənzimlənən qabaqcadan müəyyənləşdirilmiş müqavilə və ya hüquqi razılaşma daxildir.

4. **Əməl edən Hesab olunan digər Xarici Maliyyə İnstitutları və İmtiyazlı Benefisiarların müəyyənləşdirilməsi və qiymətləndirilməsi.** Birləşmiş Ştatlar Azərbaycan Respublikasının Hesabat verməyən hər bir Maliyyə İnstitutunu, ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinin məqsədləri üçün Əməl edən Hesab olunan Xarici Maliyyə İnstitutu və ya imtiyazlı benefisiar kimi qiymətləndirəcək.

5. **İştirakçı olmayan Maliyyə İnstitutları olan Əlaqəli Müəssisələr və Filiallarla bağlı Xüsusi Qaydalar.** Bu Maddənin 1-ci bəndində verilmiş tələblərə başqa cür cavab verə bilən və ya bu Maddənin 3 və ya 4-cü bəndlərində verilmiş Azərbaycan Respublikasının Maliyyə İnstitutu İştirakçı olmayan Maliyyə İnstitutu ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinin məqsədləri üçün iştirakçı Xarici Maliyyə İnstitutu və ya Əməl edən Hesab olunan Xarici Maliyyə İnstitutunun tələblərini yerinə yetirməyə icazə verməyən ölkədə fəaliyyət göstərən Əlaqəli Müəssisəyə və ya filiala və ya yalnız ABŞ Xəzinədarlıq Departamentinin qaydalarına əsasən məhdudlaşdırılmış Xarici Maliyyə İnstitutları və ya filialları üçün keçid qaydalarının müddətinin bitməsinə görə İştirakçı olmayan Maliyyə İnstitutu hesab edilən Əlaqəli Müəssisəyə və ya filiala malikdirsə, Azərbaycan Respublikasının bu cür Maliyyə İnstitutu bu Müqavilənin şərtlərinə cavab verməyə və ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinin məqsədləri üçün müvafiq hallarda Əməl edən Hesab olunan Xarici Maliyyə

İnstitutu və ya imtiyazlı benefisiar hesab olunmağa davam edir, bu şərtlə ki:

a) Azərbaycan Respublikasının Maliyyə İnstitutu hər bir bu cür Əlaqəli Müəssisəni və ya filialı, bu Müqavilənin bütün hesabat vermə və vergitutma tələblərinin məqsədləri üçün ayrıca İştirakçı olmayan Maliyyə İnstitutu kimi qiymətləndirir və hər bir bu cür Əlaqəli Müəssisə və ya filial vergi agentləri qarşısında özünü İştirakçı olmayan Maliyyə İnstitutu kimi təqdim edir.

b) Hər bir bu cür Əlaqəli Müəssisə və ya filial özünün ABŞ hesablarını müəyyən edir və ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinə əsasən tələb olunduğu kimi bu hesablarla bağlı məlumatları Əlaqəli Müəssisəyə və ya filiala tətbiq edilən müvafiq qanunvericilikdə müəyyən edilmiş həddə təqdim edir; və

c) Bu cür Əlaqəli Müəssisə və ya filial özünün yerləşdiyi ölkədə rezident olmayan şəxslərə məxsus ABŞ hesablarını və yaxud özünün yerləşdiyi ölkədə təsis edilməmiş İştirakçı olmayan Maliyyə İnstitutlarına məxsus hesabları xüsusi olaraq cəlb etmir və bu cür Əlaqəli Müəssisə və ya filialdan, müvafiq olaraq, bu Müqavilə və ya ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinə əsasən öhdəliklərdən yayınmaq üçün Azərbaycan Respublikasının Maliyyə İnstitutu və ya hər hansı digər Əlaqəli Müəssisə istifadə etmir.

6. **Vaxtın koordinasiyası.** Bu Sazişin 3-cü maddəsinin 3-cü və 5-ci bəndlərinə baxmayaraq:

a) Azərbaycan Respublikası ABŞ Xəzinədarlıq Departamentinin qaydalarına əsasən iştirakçı Xarici Maliyyə İnstitutları tərəfindən IRS-ə məlumatların ötürülməsinin tələb edildiyi təqvim ilindən əvvəl gələn təqvim ilinə münasibətdə oxşar məlumatları əldə etmək və mübadilə etmək öhdəliyini daşımır.

b) Azərbaycan Respublikası ABŞ Xəzinədarlıq Departamentinin qaydalarına əsasən İştirakçı Xarici Maliyyə İnstitutları tərəfindən məlumatların Daxili Gəlirlər Xidmətinə verilməsinin tələb edildiyi tarixdən əvvəl oxşar məlumatların mübadiləsini başlamaq öhdəliyi daşımır.

c) Birləşmiş Ştatlar Azərbaycan Respublikası tərəfindən məlumatların əldə edilməsi və mübadilə edilməsinin tələb edildiyi təqvim ilindən əvvəl gələn təqvim ilinə münasibətdə məlumatları əldə etmək və mübadilə etmək öhdəliyi daşımır.

d) Birləşmiş Ştatlar Azərbaycan Respublikasından məlumat mübadiləsinin başlamasının tələb edildiyi tarixdən əvvəl məlumat mübadiləsini başlamaq öhdəliyi daşımır.

7. **Anlayışların ABŞ Xəzinədarlıq Departamentinin qaydaları ilə uyğunlaşdırılması.** Bu Sazişin 1-ci Maddəsi və Sazişin Əlavələrində verilmiş anlayışlara baxmayaraq, bu Sazişin

tətbiq edilməsi zamanı Azərbaycan Respublikası bu Sazişin məqsədlərinə zidd olmadığı halda, bu Sazişdə verilmiş müvafiq anlayışın əvəzinə ABŞ Xəzinədarlıq Departamentinin qaydalarında verilən anlayışdan istifadə edə və ya Azərbaycan Respublikasının Maliyyə İnstitutu üçün bu cür istifadəyə icazə verə bilər.

Maddə 5
Əməletmə və icranın təmin edilməsi üzrə əməkdaşlıq

1. **Kiçik və inzibati səhvlər.** Səlahiyyətli Orqan inzibati səhvlərin və ya başqa kiçik səhvlərin qeyri-dəqiq və ya natamam məlumatların təqdim olunmasına və ya bu Müqavilənin şərtlərinin başqa cür pozulmasına səbəb olduğunu hesab etməyə əsası olduğu halda, digər Tərəfin Səlahiyyətli Orqanına bildiriş verəcəkdir. Həmin digər Tərəfin Səlahiyyətli orqanı düzgün və/və ya dəqiq məlumatların alınmasını təmin etmək və bu Müqavilə üzrə digər pozuntuları ortadan qaldırmaq üçün öz daxili qanunvericiliyini (o cümlədən tətbiq edilə bilən cərimələri) tətbiq etməlidir.

2. **Əhəmiyyətli dərəcədə pozuntu.**

a) Səlahiyyətli orqan digər Tərəfin Səlahiyyətli orqanının yurisdiksiyasında olan Hesabat Verən Maliyyə İnstitutu ilə bağlı bu Müqavilə üzrə öhdəliklərin əhəmiyyətli şəkildə pozulduğunu müəyyən etdikdə, həmin Səlahiyyətli Orqana bildiriş verəcəkdir. Həmin digər Tərəfin Səlahiyyətli orqanı bildirişdə göstərilmiş əhəmiyyətli dərəcədə pozuntunu aradan qaldırmaq üçün öz daxili qanunvericiliyini (o cümlədən tətbiq edilə bilən cərimələri) tətbiq etməlidir.

b) Əgər Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutu ilə bağlı bu cür məcburiyyət tədbirləri ABŞ-ın Səlahiyyətli orqanı tərəfindən əhəmiyyətli dərəcədə pozuntu barədə ilk bildiriş verildikdən sonra 18 ay ərzində bu pozuntu aradan qaldırılmadığı təqdirdə, Birləşmiş Ştatlar bu 2 (b) yarımbəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutunu İştirakçı olmayan Maliyyə İnstitutu hesab edəcəkdir.

3. **Üçüncü şəxslərin xidmətlərinə etibar etmə.** Tərəflərdən hər biri Hesabat Verən Maliyyə İnstitutlarına, həmin Hesabat Verən Maliyyə İnstitutlarının üzərinə qoyulan öhdəliklərin bu Müqavilədə nəzərdə tutulduğu qaydada yerinə yetirilməsi üçün üçüncü şəxslərin xidmətlərindən istifadə etmələrinə icazə verə bilər, bu şərtlə ki həmin öhdəliklərə görə Hesabat Verən Maliyyə İnstitutları cavabdeh qalsın.

4. **Yayınmanın qarşısının alınması.** Tərəflər, Maliyyə İnstitutlarının bu Saziş üzrə tələb edilən hesabatların verilməsindən yayınmağa yönəlmiş əməllərinin qarşısını almaq üçün zəruri olan tələbləri tətbiq edəcəklər.

Maddə 6
Məlumat mübadiləsinin effektivliyinin və şəffaflığın yaxşılaşdırılmasının davam etdirilməsi üzrə Qarşılıqlı Öhdəlik

1. **Qarşılıqlılıq.** Birləşmiş Ştatlar Hökuməti Azərbaycan Respublikası ilə bərabər səviyyəli qarşılıqlı avtomatik məlumat mübadiləsinə nail olunmasına ehtiyac olduğunu təsdiq edir. Birləşmiş Ştatlar Hökuməti bərabər səviyyədə qarşılıqlı avtomatik məlumat mübadiləsinə nail olmaq üçün normativ aktlar qəbul etməklə və müvafiq qanunvericiliyini təbliğ etməklə və dəstəkləməklə şəffaflığın daha da yaxşılaşdırılması və Azərbaycan Respublikası ilə mübadilə münasibətlərinin təkmilləşdirilməsinin tərəfdarıdır.

2. **Passthru ödənişlərə və ümumi gəlirə yanaşma.** Tərəflər, digər Tərəfdaş Yurisdiksiyaları ilə yanaşı, xarici "passthru" ödənişlərin və ümumi gəlirdən vergitutma siyasətinin məqsədlərinə nail olmaq məqsədilə birlikdə çətinlikləri azaldan praktiki və effektiv alternativ yanaşma işləyib hazırlamağı öz üzərilərinə götürürlər.

3. **30 iyun 2014-cü il tarixinə olan Hesabların sənədləşdirilməsi.** 30 iyun 2014-cü il tarixinə Hesabat verən Maliyyə İnstitutunda olan Hesabat verilməli Hesablarla bağlı:

a) Birləşmiş Ştatlar 1 yanvar 2017-ci il tarixinədək, 2017-ci və sonrakı illər üçün Azərbaycan Respublikasının Hesabat verilməli Hesabının hər bir Hesab Sahibinin Azərbaycan Respublikasında olan VÖEN-i barədə bu Sazişin 2-ci Maddəsinin 2(b)(1) yarımbəndinə uyğun olaraq tələb olunan qaydada məlumatın əldə edilməsini və verilməsini ABŞ-ın Hesabat verən Maliyyə İnstitutlarından tələb edən qaydalar müəyyənləşdirməyi öhdəsinə götürür; və

b) Azərbaycan Respublikası, 1 yanvar 2017-ci il tarixinədək, 2017-ci və sonrakı illər üçün hər bir Müəyyən olunmuş ABŞ Şəxsinin ABŞ-da olan VÖEN-i barədə bu Sazişin 2-ci Maddəsinin 2(a)(1) yarımbəndində tələb olunan qaydada Azərbaycan Respublikasının Hesabat verən Maliyyə İnstitutlarından tələb edən qaydalar müəyyənləşdirməyi öhdəsinə götürür.

Maddə 7
Tərəfdaş Yurisdiksiyalara FATCA-nın uyğunlaşdırılmış şəkildə tətbiqi

1. Azərbaycan Respublikası bu Sazişin 4-cü maddəsinə və ya 1 saylı Əlavəsinə əsasən FATCA-nın Azərbaycan Respublikasının Maliyyə İnstitutlarına münasibətdə tətbiqi ilə əlaqədar hər hansı digər Tərəfdaş Yurisdiksiyaya həmin Tərəfdaş Yurisdiksiyanın bağladığı və Azərbaycan Respublikası kimi bu Sazişin 2-ci və 3-cü maddələrində göstərilmiş eyni öhdəlikləri bu maddə və bu Sazişin 5-9-cu maddələrində verilmiş şərtlərə müvafiq olaraq yerinə yetirməyi qəbul etdiyi

ikitərəfli müqavilə əsasında verilmiş hər hansı daha əlverişli şərtlərin üstünlüklərindən bəhrələnəcəkdir.

2. Birləşmiş Ştatlar Azərbaycan Respublikasına bu cür daha əlverişli şərtlər barədə bildiriş verəcək və Azərbaycan Respublikası yazılı şəkildə imtina etmədiyi halda, bu cür şərtlər bu Sazişdə müəyyən olunmuş kimi avtomatik şəkildə belə şərtləri özündə birləşdirən müqavilənin imzalandığı tarixdən qüvvəyə minəcəkdir.

Maddə 8
Məsləhətləşmələr və dəyişikliklər

1. Bu Sazişin tətbiqi ilə bağlı hər hansı bir çətinlik yarandığı halda, hər bir Tərəf bu Sazişin icrasını təmin etmək üçün müvafiq tədbirlərin hazırlanması üçün məsləhətləşmələrin keçirilməsini tələb edə bilər.

2. Bu Sazişə hər iki Tərəfin qarşılıqlı yazılı razılığı ilə dəyişikliklər edilə bilər. Başqa cür nəzərdə tutulmadığı halda, dəyişikliklər bu Sazişin 10-cu maddəsinin 1-ci bəndində göstərilən qaydada qüvvəyə minir.

Maddə 9
Əlavələr

Əlavələr bu Sazişin ayrılmaz tərkib hissəsidir.

Maddə 10
Sazişin Müddəti

1. Bu Saziş Azərbaycan Respublikasının bu Sazişin qüvvəyə minməsi üçün zəruri daxili prosedurları tamamlaması barədə Birləşmiş Ştatlara verdiyi yazılı bildirişin tarixindən qüvvəyə minir.
2. Tərəflərdən hər biri, digər Tərəfə yazılı bildiriş verməklə bu Sazişi ləğv edə bilər. Bu halda Sazişə, ləğvetmə barədə bildirişin tarixindən sonra 12 aylıq dövr başa çatdıqdan sonra gələn ayın birinci günündə xitam verilir.

3.31 dekabr 2016-cı il tarixinə kimi Tərəflər, bu Sazişin 6-cı Maddəsində göstərilmiş öhdəliklər üzrə irəliləyişləri əks etdirmək üçün zəruri olduqda Sazişə dəyişikliklərlə bağlı məsləhətləşmə aparmalıdırlar.

Yuxarıdakıların təsdiq olaraq, aşağıda imza edənlər öz müvafiq Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilməklə bu Sazişi imzaladılar.

Bakı şəhərində "9" Sentyabr 2015-ci il tarixində, ingilis və Azərbaycan dillərində olmaqla, eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə imzalanmışdır.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN:

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN:

1 SAYLI ƏLAVƏ

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ HESABAT VERİLMƏLİ HESABLARININ VƏ MÜƏYYƏN İŞTİRAKÇI OLMAYAN MALİYYƏ İNSTİTUTLARINA EDİLƏN ÖDƏNİŞLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ ONLAR BARƏDƏ HESABATIN VERİLMƏSİ ÜZRƏ HƏRTƏRƏFLİ YOXLAMA ÖHDƏLİKLƏRİ

I. Ümumi müddəalar

A. Azərbaycan Respublikası Azərbaycan Respublikasının hesabat verən maliyyə institutlarından ABŞ-ın hesabat verilməli hesablarının və iştirakçı olmayan maliyyə institutlarının malik olduğu hesabların müəyyənləşdirilməsi üçün bu 1 saylı Əlavədə əks olunan hərtərəfli yoxlama prosedurlarının həyata keçirilməsini tələb edəcəkdir.

B. Sazişin məqsədləri baxımından,

1. Dollar valyutasında ifadə olunan bütün məbləğlər ABŞ dollarındadır və digər valyutalarda ekvivalenti ehtiva edəcəkdir.

2. Burada göstərilən hallar istisna olmaqla, hesabın qalığı və ya dəyəri təqvim ilinin və ya digər müvafiq hesabat dövrünün son gününə müəyyən ediləcəkdir.

3. Qalığın və ya dəyərin həddi bu 1 saylı Əlavəyə əsasən 30 iyun 2014-cü il tarixinə müəyyən edilməli olduğu halda müvafiq qalıq və ya dəyər həmin günə və ya 30 iyun 2014-cü il tarixindən dərhal öncə başa çatan hesabat dövrünün sonuncu gününə müəyyən ediləcək və qalıq və ya dəyərin həddi bu 1 saylı Əlavəyə əsasən təqvim ilinin sonuncu gününə müəyyən edilməli olduğu halda müvafiq qalıq və ya dəyər təqvim ilinin və ya digər müvafiq hesabat dövrünün sonuncu gününə müəyyən ediləcəkdir.

4. Bu 1 saylı Əlavənin II bölməsinin E(1) yarımbəndi nəzərə alınmaqla, hesab bu 1 saylı Əlavədəki hərtərəfli yoxlama prosedurlarına uyğun olaraq ABŞ-ın hesabat verilməli hesabı kimi müəyyən edildiyi tarixdən bu cür hesab kimi qiymətləndiriləcəkdir.

5. Başqa qayda müəyyən edilmədiyi halda, ABŞ-ın hesabat verilməli hesabına dair məlumat hər il məlumatın aid olduğu ildən sonrakı təqvim ilində veriləcəkdir.

C. Azərbaycan Respublikası bu 1 saylı Əlavənin hər bir bölməsində göstərilən prosedurlara alternativ olaraq Azərbaycan Respublikasının hesabat verən maliyyə institutlarına ABŞ Xəzinədarlıq Departamentinin qaydalarında əks olunan prosedurlara əsaslanaraq hesabın ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı olmasını müəyyən etməyə icazə verə bilər. Azərbaycan Respublikası Azərbaycan Respublikasının hesabat verən maliyyə institutlarına bütün müvafiq maliyyə hesablarına, yaxud, ayrılıqda bu cür hesabların hər hansı aydın müəyyən edilmiş qrupuna (misal üçün, fəaliyyət növünə və ya hesabın olduğu yerə əsasən) münasibətdə bu Əlavənin hər bir bölməsi üçün ayrı-ayrılıqda bu cür seçim etməsinə icazə verə bilər.

II. Fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar. Aşağıdakı qayda və prosedurlar fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar (fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar) arasında ABŞ-ın hesabat verilməli hesablarının müəyyən edilməsi məqsədi ilə tətbiq edilir.

A. Yoxlanılması, müəyyən edilməsi və ya hesabat verilməsi tələb edilməyən hesablar. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bütün fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablara, yaxud, ayrılıqda bu cür hesabların hər hansı aydın müəyyən edilmiş qrupuna münasibətdə başqa seçim etmədiyi təqdirdə, Azərbaycan Respublikasının icra qaydaları bu cür seçimi təmin edərsə, aşağıdakı fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesabların ABŞ-ın hesabat verilməli hesabları kimi yoxlanılması, müəyyən edilməsi və ya hesabat verilməsi tələb edilmir:

1. Bu bölmənin E(2) yarımbəndini nəzərə almaqla, 30 iyun 2014-cü il tarixinə qalığı və ya dəyəri 50,000 ABŞ dolları məbləğini keçməyən fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar.

2. Bu bölmənin E(2) yarımbəndini nəzərə almaqla, 30 iyun 2014-cü il tarixinə qalığı və ya dəyəri 250,000 ABŞ dolları məbləğini keçməyən həyat yığım sığortası müqaviləsi və ya annuitet sığortası müqaviləsi olan fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar.

3. Azərbaycan Respublikasının və ya Birləşmiş Ştatların qanun və ya digər normativ aktlarının həyat yığım sığortası müqaviləsi və ya annuitet sığortası müqaviləsinin Birləşmiş Ştatların rezidentlərinə satılmasının qarşısını effektiv şəkildə aldığı halda, həyat yığım sığortası müqaviləsi və ya annuitet sığortası müqaviləsi olan fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar (məs. əgər müvafiq maliyyə institutunun ABŞ qanunvericiliyinə uyğun olaraq tələb olunan qeydiyyatı yoxdursa və Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının rezidentlərinin sahib olduğu sığorta məhsullarına münasibətdə hesabat vermə və vergi tutma tələb edirsə).

4. Qalığı 50,000 ABŞ dolları və ya daha az məbləğdə olan Bank hesabları.

B. 30 iyun 2014-cü il tarixinə qalığı və ya dəyəri 50,000 ABŞ dolları məbləğini keçən, lakin 1,000,000 ABŞ dolları məbləğini keçməyən ("aşağı dəyərli hesablar") fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar üçün yoxlama prosedurları (sığorta müqaviləsi və ya annuitet sığortası müqaviləsi üzrə nağd pul dəyəri 250,000 ABŞ dolları)

1. **Elektron məlumat axtarışı.** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu aşağıdakı istənilən ABŞ əlamətlərindən hər biri üzrə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun saxladığı elektron axtarıla bilən verilənləri yoxlamalıdır:

a) Hesab sahibinin ABŞ vətəndaşı və ya rezidenti olmasının müəyyənləşdirilməsi;

b) Doğum yerinin Birləşmiş Ştatlarda olmasının dəqiq göstəricisi;

c) Birləşmiş Ştatlarda mövcud poçt ünvanı və ya yaşayış ünvanı (ABŞ poçt ünvanı daxil olmaqla);

d) Birləşmiş Ştatlarda mövcud telefon nömrəsi;

e) Maliyyə vəsaitlərinin Birləşmiş Ştatlarda olan hesaba köçürülməsi üçün uzunmüddətli ödəniş tapşırıqları;

f) ABŞ ünvanı olan şəxsə verilən qüvvədə olan etibarnamə və ya imza hüququ; və ya

g) Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunda hesab sahibi ilə bağlı sənədlərdə **yeganə** ünvan kimi göstərilən "nümayəndə ünvanı" və ya "saxlanılmış poçt ünvanı". Aşağı dəyərli hesab sayılan fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesab halında ABŞ-dan kənarda olan "nümayəndə ünvanı" və ya "saxlanılmış poçt ünvanı" ABŞ əlaməti kimi qiymətləndirilməyəcəkdir.

2. Elektron axtarış zamanı bu bölmənin B(1) yarımbəndində göstərilən ABŞ əlamətlərindən heç biri aşkar edilməzsə, hesabla əlaqəli bir və ya daha artıq ABŞ əlamətinin meydana çıxması ilə nəticələnən dəyişiklik olmayana və ya hesab bu bölmənin D bəndində göstərilən yüksək dəyərli hesaba çevrilməyənə kimi hesabla bağlı hər hansı bir növbəti addımın atılması tələb edilmir.

3. Elektron axtarış zamanı bu bölmənin B(1) yarımbəndində göstərilən ABŞ əlamətlərindən hər hansı biri aşkar edilərsə və ya hesabla əlaqəli bir və ya daha artıq ABŞ əlamətinin meydana çıxmasına səbəb olan dəyişiklik olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin B(4) yarımbəndini tətbiq etmək qərarı verməyənə və hesaba münasibətdə həmin yarımbənddə olan istisnalardan biri tətbiq edilməyənə kimi hesabı ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirir.

4. Bu bölmənin B(1) yarımbəndinə əsasən ABŞ əlamətinin tapılmasına baxmayaraq, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun aşağıdakı hallarda hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmağı tələb edilmir:

a) Hesab sahibinə dair məlumat birmənalı olaraq ***ABŞ-da doğum yerini*** göstərərsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu aşağıdakı məlumatları əldə edir və ya daha əvvəldən yoxlayıb və saxlayır:

(1) Hesab sahibinin vergi məqsədləri baxımından nə ABŞ vətəndaşı, nə də ABŞ rezidenti olmamasına dair özünüqiymətləndirmə sənədi (IRS W-8 formasında və ya razılaşdırılmış digər formalarda ola bilər);

(2) Hesab sahibinin Amerika Birləşmiş Ştatlarından fərqli digər ölkənin vətəndaşı olduğuna dəlalət edən qeyri-ABŞ pasportu və ya dövlət tərəfindən verilən digər identifikasiya sənədi; və

(3) Hesab sahibinin ABŞ vətəndaşlığını itirməsinə dair sənədin nüsxəsi və ya aşağıdakıların əsaslı izahı:

(a) ABŞ vətəndaşlığından çıxmasına baxmayaraq, hesab sahibinin belə sənədinin olmamasının səbəbi; ***və ya***

(b) Hesab sahibinin anadan olduğu zaman ABŞ vətəndaşlığını əldə etməməsinin səbəbi.

b) Hesab sahibinə dair məlumatda ***ABŞ-da mövcud poçt və ya yaşayış yeri ünvanı və ya hesabla əlaqəli olan telefon nömrələrinin yalnız bir və ya daha çox ABŞ nömrəsindən ibarət olarsa,*** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu aşağıdakı məlumatları əldə edir və ya daha əvvəldən yoxlayıb və saxlayır:

(1) Hesab sahibinin vergi məqsədləri baxımından nə ABŞ vətəndaşı, nə də ABŞ rezidenti olmamasına dair özünüqiymətləndirmə sənədi (IRS W-8 formasında və ya razılaşdırılmış digər formalarda ola bilər); ***və***

(2) Bu 1 saylı Əlavənin 6-cı bölməsinin D bəndində müəyyən olunduğu kimi hesab sahibinin ABŞ statusunun olmamasını göstərən yazılı dəlil.

c) Hesab sahibinə dair məlumatda maliyyə vəsaitlərinin ***ABŞ-da olan hesaba köçürülməsi üçün uzunmüddətli ödəniş tapşırıqları*** olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu aşağıdakı məlumatları əldə edir və ya daha əvvəl yoxlayaraq qoruyub saxlayır:

(1) Hesab sahibinin vergi məqsədləri baxımından nə ABŞ vətəndaşı, nə də ABŞ rezidenti olmamasına dair özünüqiymətləndirmə sənədi (IRS W-8 formasında və ya razılaşdırılmış digər formalarda ola bilər); ***və***

(2) Bu 1 saylı Əlavənin 6-cı bölməsinin D bəndində müəyyən olunduğu kimi hesab sahibinin ABŞ statusunun olmamasını göstərən yazılı dəlil.

d) Hesab sahibinə dair məlumatda ***ABŞ ünvanı olan şəxsə verilmiş qüvvədə olan etibarnamə və ya imza hüququnun olmasına, Hesab Sahibi ilə bağlı yeganə ünvan kimi "nümayəndənin ünvanı" və ya "saxlanılmış poçt ünvanı"na və ya bir və ya daha çox ABŞ telefon nömrəsinə dair məlumat olduqda,*** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu aşağıdakı məlumatları əldə edir və ya daha əvvəldən yoxlayıb və saxlayır:

(1) Hesab sahibinin vergi məqsədləri baxımından nə ABŞ vətəndaşı, nə də ABŞ rezidenti olmamasına dair özünüqiymətləndirmə sənədi (IRS W-8 formasında və ya razılaşdırılmış digər formalarda ola bilər); və ya

(2) Bu 1 saylı Əlavənin 6-cı bölməsinin D bəndində müəyyən olunduğu kimi Hesab Sahibinin ABŞ statusunun olmamasını göstərən yazılı dəlil.

C. <u>Aşağı dəyərli hesablar sayılan fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablara tətbiq edilən əlavə prosedurlar.</u>

1. ABŞ əlamətlərinin müəyyənləşdirilməsi üçün aşağı dəyərli hesablar sayılan fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesabların yoxlanılması 30 iyun 2016-cı il tarixinədək başa çatdırılmalıdır.

2. Aşağı dəyərli hesab sayılan fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesabla bağlı bu bölmənin B(1) yarımbəndində qeyd edilən bir və ya bir neçə ABŞ əlamətlərinin meydana çıxması ilə nəticələnən dəyişikliklər olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin B(4) yarımbəndi tətbiq edilənədək hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmalıdır.

3. Bu bölmənin A(4) yarımbəndində göstərilən bank hesabları istisna olmaqla, bu bölməyə əsasən ABŞ-ın hesabat verilməli hesabı kimi müəyyən olunan hər hansı fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesab, hesab sahibi müəyyən olunmuş ABŞ şəxsi kimi çıxış edənədək bütün növbəti illərdə ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirilməlidir.

D. <u>30 iyun 2014-cü il və ya 31 dekabr 2015-ci il tarixlərinə və ya istənilən növbəti ildə qalıq və ya dəyəri 1,000,000 ABŞ dolları məbləğini keçən fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar üzrə hərtərəfli yoxlama prosedurları ("yüksək dəyərli hesablar").</u>

1. **<u>Elektron məlumat axtarışı.</u>** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin B(1) yarımbəndində göstərilən istənilən ABŞ əlaməti üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu tərəfindən saxlanılan elektron axtarıla bilən məlumatları yoxlamalıdır.

2. **<u>Kağız daşıyıcılarda məlumat axtarışı.</u>** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun elektron axtarıla bilən verilənlər bazalarında bu bölmənin D(3) yarımbəndində qeyd edilən bütün məlumatlar üçün sahələr ehtiva olunursa və toplanırsa, kağız daşıyıcılarda məlumat axtarışına ehtiyac yoxdur. Elektron verilənlər bazalarında bu məlumatların hamısı toplanmırsa, Yüksək Dəyərli Hesablara münasibətdə Azərbaycan Respublikasının hesabat verən maliyyə İnstitutu, həmçinin müştəri ilə bağlı cari əsas faylı yoxlamalı və orada əks olunmadığı təqdirdə hesabla bağlı olan və Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu tərəfindən son beş ildə əldə edilmiş aşağıdakı sənədləri bu bölmənin B(1) yarımbəndində qeyd edilən istənilən ABŞ əlaməti üzrə yoxlamalıdır:

   a) Hesabla bağlı toplanılan ən son sənədlər;

   b) Ən son hesabın açılması üzrə müqavilə və ya sənədləşdirmə;

   c) AML/KYC prosedurlarına uyğun olaraq və ya digər tənzimləyici məqsədlər üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu tərəfindən əldə edilən ən son sənədlər;

   d) Hal-hazırda qüvvədə olan istənilən etibarlı etibarnamə və ya imza hüququnu təsdiqləyən sənədlər;

e) Maliyyə vəsaitlərinin köçürülməsi üçün qüvvədə olan uzunmüddətli ödəniş tapşırıqları.

3. **Verilənlər bazalarında kifayət qədər məlumatın əks olunduğu halda istisnalar.** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun elektron axtarıla bilən məlumatları aşağıdakıları ehtiva etdikdə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan bu bölmənin D(2) yarımbəndində göstərilən kağız daşıyıcılarda məlumatların axtarılması tələb edilmir:

   a) Hesab sahibinin vətəndaşlığı və ya yaşayış yeri;

   b) Hesab sahibinin Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun arxivində olan yaşayış və poçt ünvanı;

   c) Hesab sahibinin Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun arxivində olan telefon nömrəsi (nömrələri) (olduğu təqdirdə);

   d) Hesabdakı vəsaitlərin digər hesaba (Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun digər filialı və ya digər maliyyə institutunda olan hesab daxil olmaqla) köçürülməsi üçün uzunmüddətli ödəniş tapşırıqlarının olub-olmaması;

   e) Hesab sahibi üçün "nümayəndənin ünvanı" və ya "saxlanılmış poçt ünvanı"nın olub-olmaması; ***və***

   f) Hesab üzrə hər hansı etibarnamə və ya imza hüququnun olub-olmaması.

4. **Müştərilərlə iş üzrə menecerin faktiki məlumatlara dair sorğusu.** Yuxarıda qeyd edilən elektron və kağız daşıyıcılarda məlumat axtarışına əlavə olaraq müştərilərlə iş üzrə menecer hesab sahibinin müəyyən olunmuş ABŞ şəxsi olmasına dair faktiki məlumata malik olduğu təqdirdə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu müştərilərlə iş üzrə menecerə tapşırılan (belə yüksək dəyərli hesabları ilə vəhdət təşkil edən istənilən maliyyə hesabları) yüksək dəyərli hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmalıdır.

5. **ABŞ əlamətlərinin tapılmasının nəticəsi.**

   a) Yuxarıda qeyd edilən yüksək dəyərli hesabların hərtərəfli yoxlanması zamanı bu bölmənin B(1) yarımbəndində göstərilən ABŞ əlamətlərindən heç biri aşkar edilmədikdə və hesabın bu bölmənin D(4) yarımbəndində verilən müəyyən olunmuş ABŞ Şəxsinə məxsus olması müəyyən edilmədikdə, hesabla bağlı bir və ya daha çox ABŞ əlamətinin meydana çıxması ilə nəticələnən dəyişiklik olmayanadək, heç bir növbəti addımın atılmasına zərurət yaranmır.

   b) Yuxarıda qeyd edilən Yüksək dəyərli hesabların hərtərəfli yoxlanması zamanı bu bölmənin B(1) yarımbəndində göstərilən ABŞ əlamətlərindən hər hansı biri aşkar

edilərsə və ya bir və ya daha çox ABŞ əlamətinin meydana çıxması ilə nəticələnən dəyişiklik olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin B(4) yarımbəndini tətbiq etmək barədə qərar verməyənə və həmin yarımbənddəki istisnalardan hər hansı biri həmin hesaba münasibətdə tətbiq edilməyənə kimi hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmalıdır.

c) Bu bölmənin A(4) yarımbəndində göstərilən Bank hesabları istisna olmaqla, bu bölməyə əsasən ABŞ-ın hesabat verilməli hesabı kimi müəyyən olunan hər hansı fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesab, hesab sahibi müəyyən olunmuş ABŞ şəxsi olduğu müddətədək bütün növbəti illərdə ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirilməlidir.

E. Yüksək dəyərli hesablara tətbiq edilən əlavə prosedurlar

1. Fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesab 30 iyun 2014-cü il tarixinə yüksək dəyərli hesab olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu hesabla bağlı 30 iyun 2015-ci il tarixinədək bu bölmənin D bəndində göstərilən hərtərəfli yoxlama prosedurlarını başa çatdırmalıdır. Bu yoxlama əsasında belə hesabın 31 dekabr 2014-cü il tarixində və ya bu tarixdən qabaq ABŞ-ın hesabat verilməli hesabı olduğu müəyyən edilərsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu 2014-cü ilə münasibətdə bu cür hesabla bağlı tələb edilən məlumatları hesab üzrə ilk hesabatda və bundan sonra illik əsasda verməlidir. Hesabın 31 dekabr 2014-cü il tarixindən 30 iyun 2015-ci il tarixinə kimi və ya həmin tarixdə ABŞ-ın hesabat verilməli hesabı olması müəyyən edilərsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan 2014-cü il üçün belə hesab barədə məlumatın verməsi tələb olunmur və Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bundan sonra illik əsasda hesab barədə hesabat verməlidir.

2. Əgər fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesab 30 iyun 2014-cü il tarixinə yüksək dəyərli hesab olmazsa, lakin 2015-ci ilin və ya hər hansı növbəti təqvim ilinin son gününə yüksək dəyərli hesaba çevrilərsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesabın yüksək dəyərli hesaba çevrildiyi təqvim ilinin sonuncu günündən sonra altı ay ərzində belə hesaba münasibətdə bu bölmənin D yarımbəndində verilmiş hərtərəfli yoxlama prosedurlarını başa çatdırmalıdır. Bu yoxlama əsasında hesab ABŞ-ın hesabat verilməli hesabı kimi müəyyən olunarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu, hesab sahibi müəyyən olunmuş ABŞ şəxsi olduğu müddətədək, bu hesabın ABŞ-ın hesabat verilməli hesabı kimi müəyyən olunduğu il və ondan sonra gələn illər üçün illik əsasda tələb edilən məlumatları verməlidir.

3. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin D bəndində verilmiş hərtərəfli yoxlama prosedurlarını yüksək dəyərli hesaba tətbiq edərsə, müştərilərlə iş üzrə menecerin bu bölmənin D(4) yarımbəndində göstərilən sorğusu istisna olmaqla, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan növbəti illərdə eyni yüksək dəyərli hesaba bu prosedurları yenidən tətbiq etmək tələb edilmir.

4. Yüksək dəyərli hesaba münasibətdə bu bölmənin B(1) yarımbəndində göstərilən hesabla əlaqəli bir və ya daha çox ABŞ əlamətlərinin meydana çıxması ilə nəticələnən dəyişiklik olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin B(4) yarımbəndini tətbiq etmək barədə qərar verməyənə və həmin yarımbənddəki istisnalardan hər hansı biri həmin hesaba münasibətdə tətbiq edilməyənə kimi hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmalıdır.

5. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu müştərilərlə iş üzrə menecer tərəfindən hesabla bağlı istənilən dəyişikliyin müəyyən edilməsini təmin etmək üçün prosedurlar həyata keçirməlidir. Misal üçün müştərilərlə iş üzrə menecerə hesab sahibinin ABŞ-da yeni poçt ünvanının olması barədə məlumat verilərsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan yeni ünvanı hesabla bağlı dəyişiklik kimi qəbul etməsi tələb olunur və o, bu bölmənin B(4) yarımbəndinin tətbiqi barədə qərar qəbul edərsə, hesab sahibindən müvafiq sənədləşməni əldə etməlidir.

F. Müəyyən digər məqsədlər üçün sənədləşdirilmiş fiziki şəxslərə məxsus əvvəlcədən mövcud olan hesablar. İxtisaslaşdırılmış vasitəçi, vergi agenti funksiyasını yerinə yetirən xarici ortaqlıq və ya xarici trast kimi öhdəliklərini və ya ABŞ Məcəlləsinin 26-cı bölməsinin 61-ci fəslinə əsasən öhdəliklərini icra etmək üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu əvvəl Hesab Sahibindən onun nə ABŞ vətəndaşı, nə də ABŞ rezidenti olmadığını müəyyən etmək üçün sənədlər əldə etmişdirsə, aşağı dəyərli hesablara münasibətdə bu bölmənin B(1) yarımbəndində və ya yuxarı dəyərli hesablara münasibətdə bu bölmənin D(1)-D(3) yarımbəndlərində verilmiş prosedurları yerinə yetirmək öhdəliyi daşımır.

III. Fiziki şəxslərə məxsus yeni hesablar. 1 iyul 2014-cü il tarixində və ya bu tarixdən sonra açılan fiziki şəxslərə məxsus maliyyə hesabları ("fiziki şəxslərə məxsus yeni hesablar") arasında ABŞ-ın hesabat verilməli hesablarının müəyyən edilməsi məqsədi ilə aşağıdakı qayda və prosedurlar tətbiq olunur:

A. **Yoxlanılması, müəyyən edilməsi və ya hesabat verilməsi tələb edilməyən hesablar.** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bütün fiziki şəxslərə məxsus yeni hesablara, yaxud ayrılıqda bu cür hesabların hər hansı aydın müəyyən edilmiş qrupuna münasibətdə başqa seçim etmədiyi təqdirdə, Azərbaycan Respublikasının icra qaydaları bu cür seçimi təmin edərsə, aşağıdakı fiziki şəxslərə məxsus yeni hesabların ABŞ-ın hesabat verilməli hesabları kimi yoxlanılması, müəyyən edilməsi və ya hesabat verilməsi tələb edilmir:

1. Təqvim ilinin və ya istənilən digər hesabat dövrünün sonunda hesabın balansı 50,000 ABŞ dolları məbləğini keçməyən Bank hesabı.

2. Təqvim ilinin və ya istənilən digər hesabat dövrünün sonunda Pul Dəyəri 50,000 ABŞ dolları məbləğini keçməyən həyat yığım sığortası müqaviləsi.

B. **Digər fiziki şəxslərə məxsus yeni hesablar.** Bu bölmənin A bəndində nəzərdə tutulmamış fiziki şəxslərə məxsus yeni hesablara münasibətdə hesab açıldıqda (və ya hesab bu bölmənin A bəndində nəzərdə tutulmuş hesabların tələblərinə cavab verməyi dayandırdığı təqvim ilinin sonundan sonra 90 gün ərzində) Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesabın açılması üçün sənədləşmənin bir hissəsi ola bilən və ona hesab sahibinin vergi məqsədləri (bu məqsədlə hesab sahibi eyni zamanda digər ölkənin vergi rezidenti olduğu halda belə ABŞ vətəndaşına vergi məqsədləri baxımından ABŞ rezidenti kimi yanaşılır) üçün ABŞ rezidenti olub-olmamasını müəyyən etməyə və AML/KYC prosedurlarına uyğun olaraq toplanılan istənilən sənədləşmə daxil olmaqla, hesabın açılması ilə bağlı Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun əldə etdiyi məlumata əsaslanaraq özünü qiymətləndirmə prosedurunun əsaslılığını təsdiq etməyə imkan verən bu cür özünü qiymətləndirmə sənədini almalıdır.

1.Özünü qiymətləndirmə sənədinə əsasən hesab sahibinin vergi məqsədləri baxımından ABŞ rezidenti olması müəyyən edilsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesabı ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirməli və hesab sahibinin ABŞ-da olan VÖEN-ini (IRS W-9 forması və ya digər oxşar razılaşdırılmış forma ola bilər) ehtiva edən özünü qiymətləndirmə sənədini əldə etməlidir.

2.Fiziki şəxslərə məxsus yeni hesablara münasibətdə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun özünü qiymətləndirmə sənədinin əslinin qeyri-düzgün və ya əsassız hesab etməsi və ya hesab etməyə əsası olmasına səbəb olan dəyişiklik olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu özünü qiymətləndirmənin əslinə əsaslanmır və vergi məqsədləri baxımından hesab sahibinin ABŞ vətəndaşı və ya rezidenti olmasını müəyyən etmək üçün etibarlı özünü qiymətləndirmə sənədini əldə etməlidir. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu etibarlı özünü qiymətləndirmə sənədini əldə edə bilmədikdə, hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmalıdır.

IV. **Qabaqcadan mövcud olan müəssisə hesabları.** Aşağıdakı qayda və prosedurlar müəssisələrin qabaqcadan mövcud olan hesabları (qabaqcadan mövcud olan müəssisə hesabları) arasında ABŞ-ın hesabat verilməli hesablarının və iştirakçı olmayan maliyyə institutlarının hesablarının müəyyən edilməsi məqsədi ilə tətbiq edilir.

A. **Yoxlanılması, müəyyən edilməsi və ya hesabat verməsi tələb edilməyən müəssisə hesabları.** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bütün qabaqcadan mövcud olan müəssisə hesablarına, yaxud, ayrılıqda bu cür hesabların hər hansı aydın müəyyən edilmiş qrupuna münasibətdə Azərbaycan Respublikasının icra qaydaları bu cür seçimi təmin edərsə, başqa seçim etmədiyi təqdirdə 30 iyun 2014-cü il tarixinə balans və ya dəyəri 250,000 ABŞ dolları məbləğini keçməyən qabaqcadan mövcud olan müəssisə hesabının balans və ya dəyəri 1,000,000 ABŞ dolları məbləğini keçməyənədək ABŞ-ın hesabat verilməli hesabı kimi yoxlanılması, müəyyən edilməsi və hesabat verməsi tələb edilmir.

B. **Yoxlanılmalı olan müəssisə hesabları.** 30 iyun 2014-cü il tarixinə balans və ya dəyəri 250,000 ABŞ dolları məbləğini keçən qabaqcadan mövcud olan müəssisə hesabı və 30 iyun

2014-cü il tarixinə 250,000 ABŞ dolları məbləğini keçməyən, lakin 2015-ci ilin və ya hər hansı növbəti təqvim ilinin son gününə qalığı və ya dəyəri 1,000,000 ABŞ dolları məbləğini keçən qabaqcadan mövcud olan müəssisə hesabı bu bölmənin D bəndində müəyyən edilən prosedurlara uyğun olaraq yoxlanılmalıdır.

C. **Hesabat verilməli olan Müəssisə Hesabları.** Bu bölmənin B bəndində qeyd edilən qabaqcadan mövcud olan müəssisə hesablarına münasibətdə yalnız Müəyyən olunmuş ABŞ Şəxsləri olan bir və ya daha çox müəssisələrə məxsus olan hesablar və ya ABŞ vətəndaşı və ya rezidentləri olan bir və ya daha çox nəzarət edən şəxslərlə passiv xarici qeyri-maliyyə müəssisəsi (Passiv NFFE) məxsus olan hesablar ABŞ-ın hesabat verilməli hesabları kimi qiymətləndirilməlidir. Bununla yanaşı, iştirakçı olmayan maliyyə institutlarına məxsus hesablar Sazişin 4-cü maddəsinin 1(b) yarımbəndində nəzərdə tutulduğu kimi ümumi ödənişləri barədə məlumatlar Azərbaycan Respublikasının səlahiyyətli orqanına verilən hesablar kimi qiymətləndiriləcəkdir.

D. **Hesabat verilməli olan müəssisə hesablarının müəyyən edilməsi üçün yoxlama prosedurları.** Bu bölmənin B bəndində nəzərdə tutulmuş qabaqcadan mövcud olan müəssisə hesabları üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesabın bir və ya daha çox müəyyən olunmuş ABŞ şəxsinə, ABŞ vətəndaşları və ya rezidentləri olan bir və ya daha çox nəzarət edən şəxsləri olan passiv NFFE-yə və ya iştirakçı olmayan maliyyə institutlarına məxsus olub-olmamasını müəyyən etmək üçün aşağıdakı prosedurları həyata keçirməlidir:

1. **Müəssisənin müəyyən olunmuş ABŞ şəxsi olub-olmamasının müəyyən edilməsi.**

a) Məlumatda hesab sahibinin ABŞ Şəxsi olub-olmamasının göstərilməsini müəyyən etmək üçün tənzimləmə və ya müştərilərlə iş məqsədləri baxımından əldə edilmiş məlumatı (AML/KYC prosedurlarına uyğun olaraq toplanılan məlumatlar daxil olmaqla) yoxlamaq. Bu məqsədlə Hesab Sahibinin ABŞ Şəxsi olduğunu göstərən məlumata ABŞ-da qeydiyyatdan keçmə və ya təşkil edilmə və yaxud ABŞ-da ünvanın olması barədə məlumat daxildir.

b) Məlumat hesab sahibinin ABŞ şəxsi olduğunu əks etdirərsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesab sahibindən özünü qiymətləndirmə sənədini (IRS W-8 və ya W-9 formasında və ya oxşar razılaşdırılmış formada ola bilər) əldə etməyənə və ya özünün malik olduğu məlumata və ya ictimaiyyətə açıq olan məlumata istinad etməklə əsaslı olaraq hesab sahibinin müəyyən olunmuş ABŞ şəxsi olmadığını müəyyən etməyənə kimi hesabı ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirməlidir.

2. **Qeyri-ABŞ Müəssisəsinin maliyyə institutu olub-olmamasının müəyyən edilməsi.**

a) Məlumatda hesab sahibinin maliyyə institutu olub-olmamasının göstərilməsini müəyyən etmək üçün tənzimləmə və ya müştərilərlə iş məqsədi ilə əldə edilmiş məlumatı (AML/KYC prosedurlarına uyğun olaraq toplanılan məlumat daxil olmaqla) yoxlamaq.

b) Məlumat hesab sahibinin maliyyə institutu olduğunu əks etdirərsə və ya Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu tərəfindən IRS-in dərc edilən FFI

siyahısında hesab sahibinin qlobal vasitəçi identifikasiya nömrəsi təsdiq edilərsə, hesab ABŞ-ın hesabat verilməli hesabı sayılmır.

3. **Maliyyə institutunun sazişin 4-cü maddəsinin 1(b) yarımbəndinə əsasən ödənişləri barədə ümumi hesabatın verilməli olduğu iştirakçı olmayan maliyyə institutu olub-olmamasının müəyyən edilməsi.**

   a) Bu bölmənin D (3) (b) yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu IRS-in dərc edilən FFI siyahısında hesab sahibinin qlobal vasitəçi identifikasiya Nömrəsi əsasında və ya ictimaiyyətə açıq olan və ya Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun sərəncamında olan digər məlumata istinad edərək əsaslı hesab etdiyi halda, hesab sahibini Azərbaycan Respublikasının maliyyə institutu və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutu olmasını müəyyən edə bilər.

   b) Əgər hesab sahibi IRS tərəfindən iştirakçı olmayan maliyyə institutu kimi qiymətləndirilən Azərbaycan Respublikasının maliyyə institutudursa və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutudursa, hesab ABŞ-ın hesabat verilməli hesabı sayılmır, lakin hesab sahibinə edilən ödənişlər barədə məlumat Sazişin 4-cü maddəsinin 1(b) yarımbəndinə uyğun olaraq verilməlidir.

   c) Hesab sahibi Azərbaycan Respublikasının maliyyə institutu və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutu deyildirsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu, aşağıdakı hallar istisna olmaqla hesab sahibini ödənişləri barədə məlumatın sazişin 4-cü maddəsinin 1(b) yarımbəndinə uyğun olaraq verilməli olduğu iştirakçı olmayan maliyyə institutu kimi qəbul edir:

      (1) Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu ABŞ Xəzinədarlıq Qaydalarında müəyyən edildiyi kimi təsdiq edilmiş əməl edən hesab edilən FFI və ya hesabat verməkdən azad edilmiş faktiki sahib olan hesab sahibindən özünü qiymətləndirmə sənədini (IRS W-8 formasında və ya oxşar razılaşdırılmış formada ola bilər) alır; ***və ya***

      (2) İştirakçı FFI və ya qeydiyyatdan keçmiş əməl edən FFI halında, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu IRS-in dərc edilən FFI siyahısında hesab sahibinin qlobal vasitəçi identifikasiya nömrəsini təsdiq edir.

4. **NFFE-yə məxsus olan hesabın ABŞ-ın hesabat verilməli hesabı olub-olmamasının müəyyən edilməsi.** Nə ABŞ şəxsi, nə də maliyyə institutu kimi müəyyən edilməyən qabaqcadan mövcud olan müəssisə hesabının hesab Sahibinə münasibətdə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu (i) hesab Sahibinin Nəzarət edən Şəxslərə malik olub-olmamasını, (ii) hesab sahibinin Passiv NFFE olub-olmamasını və (iii) hesab sahibinin hər hansı nəzarət edən şəxslərindən hər hansı birinin ABŞ vətəndaşı və ya rezidenti olub-olmamasını müəyyən etməlidir. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu yuxarıdakıları müəyyən edərkən D (4)(a) yarımbəndindən D

(4)(d) yarımbəndinə kimi olan təlimatlara şərtlərdən asılı olaraq ən uyğun ardıcıllıqla riayət etməlidir.

a) Hesab sahibinin nəzarət edən şəxslərinin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu AML/KYC prosedurlarına uyğun olaraq əldə edilən və toplanılan məlumatlara istinad edə bilər.

b) Hesab sahibinin passiv NFFE olub-olmamasını müəyyən etmək üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu özünün malik olduğu və ya ictimaiyyətə açıq olan məlumat əsasında hesab sahibinin aktiv xarici qeyri-maliyyə müəssisəsi (aktiv NFFE) olmasını əsaslı olaraq müəyyən etməyənədək, hesab sahibindən onun statusunu müəyyənləşdirmək üçün özünü qiymətləndirmə sənədini (IRS W-8 və ya W-9 formalarında və ya oxşar razılaşdırılmış formalarda) əldə etməlidir.

c) Passiv NFFE-nin nəzarət edən şəxsinin vergi məqsədləri baxımından ABŞ vətəndaşı və ya rezidenti olub-olmamasını müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu aşağıdakılara istinad edə bilər:

   (1) Qalığı və ya dəyəri 1,000,000 ABŞ dolları məbləğini keçməyən bir və ya daha çox NFFE-yə məxsus qabaqcadan mövcud olan müəssisə hesabı halında AML/KYC prosedurlarına uyğun olaraq toplanılmış və saxlanılmış məlumatlara; ***və ya***

   (2) Qalığı və ya dəyəri 1,000,000 ABŞ dolları məbləğini keçən bir və ya daha çox NFFE-yə məxsus qabaqcadan mövcud olan müəssisə hesabı halında hesab sahibindən və ya belə nəzarət edən şəxslərdən özünü qiymətləndirmə sənədinə (IRS W-8 və ya W-9 formalarında və ya oxşar razılaşdırılmış formalarda).

d) Passiv NFFE-nin hər hansı nəzarət edən şəxsi ABŞ vətəndaşı və ya rezidenti olarsa, hesab ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirilməlidir.

E. <u>Qabaqcadan mövcud olan müəssisə hesablarına tətbiq olunan əlavə prosedurlar və yoxlama müddəti</u>

1. 30 iyun 2014-cü il tarixinə balans və ya dəyər 250,000 ABŞ dolları məbləğini keçən qabaqcadan mövcud olan müəssisə hesablarının yoxlanılması 30 iyun 2016-cı il tarixinədək başa çatdırılmalıdır.

2. 30 iyun 2014-cü il tarixinə balans və ya dəyər 250,000 ABŞ dolları məbləğini keçməyən, lakin balans və ya dəyər 31 dekabr 2015-ci il tarixinə və ya hər hansı növbəti ildə 1,000,000 ABŞ dolları məbləğini keçən qabaqcadan mövcud olan müəssisə hesablarının yoxlanılması hesabın balans və ya dəyərinin 1,000,000 ABŞ dolları məbləğini keçdiyi təqvim ilin sonuncu günündən sonra altı ay ərzində başa çatdırılmalıdır.

3. Qabaqcadan mövcud olan müəssisə hesablarına münasibətdə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun özünü qiymətləndirmə sənədini və ya hesabla bağlı digər sənədi qeyri-düzgün və ya əsassız hesab etməsi və ya hesab etməyə əsası olmasına səbəb olan dəyişiklik olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu bölmənin D bəndində qeyd edilən prosedurlara uyğun olaraq hesabın statusunu yenidən müəyyən etməlidir.

V. **Yeni müəssisə hesabları.** Aşağıdakı qayda və prosedurlar 1 iyul 2014-cü il tarixində və ya bu tarixdən sonra açılan ABŞ-ın hesabat verilməli hesablarının və müəssisələrə məxsus olan maliyyə hesabları arasında iştirakçı olmayan maliyyə institutlarına məxsus olan hesabların ("yeni müəssisə hesabları") müəyyən edilməsi məqsədi ilə tətbiq edilir.

A. **Yoxlanılması, Müəyyən edilməsi və ya Hesabat verilməsi tələb edilməyən Müəssisə Hesabları.** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bütün yeni müəssisə hesablarına, yaxud, ayrılıqda bu cür hesabların hər hansı aydın müəyyən edilmiş qrupuna münasibətdə Azərbaycan Respublikasının icra qaydaları bu cür seçimi təmin edərsə, başqa seçim etmədiyi təqdirdə yeni müəssisə hesabı kimi qiymətləndirilən kredit kartı hesabı və bərpa olunan kredit üzrə hesabların, bu cür hesabların saxlandığı Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun Hesab Sahibinə hesabın qalıq dəyərinin 50,000 ABŞ dolları məbləğinin keçməsinin qarşısını almaq üçün siyasət və prosedurlar tətbiq etməsi şərti ilə, yoxlanılması, müəyyən edilməsi və ya hesabat verilməsi tələb edilmir.

B. **Digər yeni müəssisə hesabları.** Bu bölmənin A bəndində nəzərdə tutulmayan yeni müəssisə hesablarına münasibətdə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesab sahibinin (i) müəyyən olunmuş ABŞ şəxsi, (ii) Azərbaycan Respublikasının və ya digər tərəfdaş yurisdiksiyanın maliyyə institutu, (iii) ABŞ Xəzinədarlıq Qaydalarında müəyyən edildiyi kimi iştirakçı xarici maliyyə institutu (**FFI**), əməl edən hesab edilən FFI və ya hesabat verməkdən azad edilmiş faktiki sahib və ya (iv) aktiv və ya passiv NFFE olmasını müəyyən etməlidir.

1. Bu bölmənin B(2) yarımbəndinə müvafiq olaraq Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesab sahibinin qlobal vasitəçi identifikasiya nömrəsi əsasında və ya ictimaiyyətə açıq olan və ya Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun sərəncamında olan digər məlumata istinad edərək əsaslı hesab etdiyi halda, Hesab Sahibinin aktiv NFFE, Azərbaycan Respublikasının maliyyə institutu və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutu olmasını müəyyən edə bilər.

2. Hesab sahibi IRS tərəfindən iştirakçı olmayan maliyyə institutu kimi qiymətləndirilən Azərbaycan Respublikasının maliyyə institutu və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutu olarsa, hesab ABŞ-ın hesabat verilməli hesabı deyil, lakin hesab sahibinə edilən ödənişlər barədə məlumat Sazişin 4-cü maddəsinin 1(b) yarımbəndinə uyğun olaraq verilməlidir.

3. Bütün digər hallarda, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesab sahibinin statusunu müəyyən etmək üçün ondan özünü qiymətləndirmə sənədini almalıdır. Bu sənədə əsaslanmaqla aşağıdakı qaydalar tətbiq olunur:

   a) Hesab sahibi ***müəyyən olunmuş ABŞ şəxsi*** olduğu təqdirdə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu hesaba ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirir.

   b) Əgər hesab sahibi ***passiv NFFE***-dirsə, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu AML/KYC qaydaları çərçivəsində müəyyən edildiyi kimi nəzarət edən şəxsləri identifikasiya edir və bu cür şəxs və ya hesab sahibindən özünü qiymətləndirmə sənədi əsasında bu cür şəxsin ABŞ vətəndaşı və ya rezidenti olmasını müəyyən edir. İstənilən bu cür şəxs ABŞ vətəndaşı və ya rezidenti olarsa, hesabat verən Azərbaycan Respublikasının maliyyə institutu hesabı ABŞ-ın hesabat verilməli hesabı kimi qiymətləndirir.

   c) Əgər hesab sahibi (i) müəyyən olunmuş ABŞ şəxsi olmayan ABŞ Şəxsi, (ii) bu bölmənin B(3)(d) yarımbəndinə əsasən Azərbaycan Respublikasının maliyyə institutu və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutu, (iii) ABŞ-ın Xəzinədarlıq idarəsinin müvafiq qaydalarında müəyyən edildiyi kimi iştirakçı FFI, əməl edən hesab edilən FFI və ya hesabat verməkdən azad edilmiş faktiki sahib və ya (iv) aktiv NFFE və ya (v) nəzarət edən şəxslərindən heç biri passiv ABŞ vətəndaşı və ya rezidenti olmayan NFFE olarsa, hesab ABŞ-ın hesabat verilməli hesabı sayılmır və hesabla bağlı heç bir hesabat verilməsi tələb olunmur.

   d) Hesab sahibi iştirakçı olmayan maliyyə institutu olarsa (IRS tərəfindən İştirakçı olmayan maliyyə institutu kimi qiymətləndirilən Azərbaycan Respublikasının maliyyə institutu və ya digər tərəfdaş yurisdiksiyasının maliyyə institutu), hesab ABŞ-ın hesabat verilməli hesabı sayılmır, lakin hesab sahibinə edilən ödənişlər barədə məlumat Sazişin 4-cü maddəsinin 1(b) yarımbəndinə uyğun olaraq verilməlidir.

VI. **Xüsusi qayda və anlayışlar.** Aşağıdakı əlavə qayda və anlayışlar yuxarıda qeyd edilən hərtərəfli yoxlama prosedurlarının həyata keçirilməsində tətbiq olunur:

A. **Özünüqiymətləndirmə sənədinə və yazılı dəlillərə əsaslanma.** Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu özünüqiymətləndirmə sənədinin və ya yazılı dəlilin səhv və ya etibarsız olmasını bilərsə və ya bilməyə əsası olarsa, bu cür sənədlərə əsaslanmaya bilər.

B. **Anlayışlar.** Bu 1 saylı Əlavənin məqsədləri baxımından aşağıdakı anlayışlardan istifadə edilir.

   1. **AML/KYC prosedurları.** AML/KYC prosedurları Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun əməl etməli olduğu Azərbaycan Respublikasının çirkli pulların yuyulmasına qarşı və ya oxşar tələblərinə uyğun olaraq Azərbaycan

Respublikasının hesabat verən maliyyə institutunun müştərilərin hərtərəfli yoxlanılması prosedurlarını bildirir.

2. **NFFE.** NFFE, ABŞ Xəzinədarlıq Qaydalarında müəyyən edildiyi kimi FFI olmayan hər hansı qeyri-ABŞ Müəssisəsi və ya bu bölmənin B(4)(j) yarımbəndində nəzərdə tutulan müəssisədir və maliyyə institutu olmayan, Azərbaycan Respublikasında və ya digər tərəfdaş yurisdiksiyada təsis edilən istənilən qeyri-ABŞ müəssisəsini ehtiva edir.

3. **Passiv NFFE.** Passiv NFFE dedikdə, (i) aktiv NFFE və ya (ii) ABŞ-ın Xəzinədarlıq idarəsinin müvafiq normativ aktlarına uyğun olaraq vergi agenti funksiyasını yerinə yetirən xarici ortaqlıq və ya xarici trast olmayan hər hansı NFFE başa düşülür.

4. **Aktiv NFFE.** Aktiv NFFE aşağıdakı meyarlardan hər hansı birinə cavab verən istənilən NFFE-ni bildirir:

   a) NFFE-nin əvvəlki təqvim ili və ya digər müvafiq hesabat dövrü üçün ümumi gəlirinin 50 faizindən daha az hissəsi passiv gəlirdir və əvvəlki təqvim ili və ya digər müvafiq hesabat dövrü ərzində NFFE-yə məxsus aktivlərin 50 faizindən daha az hissəsi passiv gəlir gətirir və ya passiv gəlirin götürülməsi üçün saxlanılır;

   b) Səhmləri tənzimlənən qiymətli kağızlar bazarında mütəmadi olaraq ticarət olunur və ya NFFE səhmləri tənzimlənən qiymətli kağızlar bazarında mütəmadi olaraq ticarət olunan Müəssisə ilə Əlaqəli Müəssisədir;

   c) NFFE ABŞ Ərazilərində təsis edilmişdir və ödəniş sahiblərinin hamısı həmin ABŞ Ərazilərinin həqiqi rezidentləridir;

   d) NFFE hökumət (ABŞ hökumətindən başqa), belə hökumətin inzibati-ərazi vahidi (qeyri-müəyyənliyin aradan qaldırılması üçün ştat, əyalət, rayon və ya bələdiyyəni ehtiva edir), bu cür hökumətin və ya onun inzibati-ərazi vahidinin funksiyalarını yerinə yetirən dövlət hakimiyyət orqanı, ABŞ Ərazisinin hökuməti, beynəlxalq təşkilat, qeyri-ABŞ mərkəzi emissiya bankı və ya yuxarıda göstərilənlərin biri və ya bir neçəsinin mülkiyyətində olan müəssisə;

   e) NFFE-nin bütün fəaliyyəti əhəmiyyətli dərəcədə ticarət fəaliyyəti və ya maliyyə institutunun biznes fəaliyyətindən fərqli olan digər biznes fəaliyyəti ilə məşğul olmaqdan ibarət olan bir və ya bir neçə törəmə müəssisənin dövriyyəyə buraxılmış səhmlərinin saxlanılması (tamamilə və ya qismən) və ya onlara maliyyə xidmətinin göstərilməsindən ibarətdir, lakin buna istisna olaraq, müəssisə investisiya fondu (məsələn özəl pay fondu, vençur kapital fondu, borc kapitalı hesabına nəzarət paketlərinin alınması fondu, yaxud məqsədi şirkətləri almaq və ya maliyyələşdirmək və sonradan həmin şirkətlərdəki maraqlardan investisiya üçün kapital aktivləri kimi istifadə etmək olan hər hansı digər investisiya aləti) kimi fəaliyyət göstərdiyi halda NFFE statusu əldə etməyəcəkdir;

f) NFFE hələ sahibkarlıq fəaliyyəti ilə məşğul deyil və ilkin əməliyyat tarixi yoxdur, ilkin təşkil edilmə tarixindən sonra gələn 24 aylıq müddətin bitdiyi tarixdən sonra bu istisna üçün hüququnun itirilməsi şərtilə, maliyyə İnstitutunun fəaliyyətindən fərqli sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün səhmlərə kapital qoyuluşu edir;

g) NFFE son beş ildə maliyyə institutu olmamışdır və fəaliyyətində maliyyə institutunun əməliyyatlarından fərqli əməliyyatları davam etdirmək və ya bərpa etmək niyyəti ilə öz aktivlərini satmaq və ya yenidən təşkil olunma prosesindədir;

h) NFFE əsasən maliyyə institutu olmayan Əlaqəli Müəssisələrlə və ya onlar üçün maliyyə və hedc əməliyyatları ilə məşğul olur və Əlaqəli Müəssisə olmayan hər hansı Müəssisəyə maliyyə və ya hedc xidmətləri göstərmir, bu şərtlə ki hər hansı belə Əlaqəli Müəssisənin qrupu əsasən maliyyə İnstitutunun məşğul olmadığı sahibkarlıq fəaliyyətində iştirak etsin;

i) NFFE ABŞ Xəzinədarlıq Qaydalarında verildiyi kimi "müstəsna NFFE"dir; ***və ya***

j) NFFE aşağıdakı tələblərin hamısına cavab verir:

i. O, rezidenti olduğu yurisdiksiyada müstəsna olaraq dini, xeyriyyə, elmi, incəsənət, mədəni, idman və ya təhsil məqsədləri baxımından təsis edilmiş və idarə olunan; və ya o, rezidenti olduğu yurisdiksiyada təsis edilmiş və idarə olunur və peşəkar birlik, sahibkarlar liqası, ticarət palatası, əmək təşkilatı, kənd təsərrüfatı və ya bağçılıq təşkilatı, şəhər liqası və ya müstəsna olaraq sosial rifahın təşviqi üçün fəaliyyət göstərən təşkilatdır.

ii. O, rezidenti olduğu yurisdiksiyada gəlir vergisindən azad edilmişdir;

iii. Onun gəlir və ya kapitalında mülkiyyətçi və ya benefisiar maraqları olmayan payçıları və ya üzvləri yoxdur;

iv. NFFE-nin rezidenti olduğu yurisdiksiyanın tətbiq edilən qanunvericiliyi və ya NFFE-nin təsis sənədləri NFFE-nin xeyriyyə fəaliyyətinin həyata keçirilməsinə uyğun olaraq və ya göstərilən xidmətlərin əvəzinin ədalətli şəkildə ödənilməsi və ya NFFE-nin əldə etdiyi əmlakın ədalətli bazar qiymətini nəzərdə tutan ödənişin edilməsi halları istisna olmaqla, NFFE-nin hər hansı gəlirlərinin və ya aktivlərinin fiziki şəxs və ya xeyriyyə təşkilatı olmayan təşkilata paylanmasına və ya onların xeyrinə istifadə edilməsinə icazə vermir; **və**

v. NFFE-nin rezidenti olduğu yurisdiksiyanın tətbiq edilən qanunvericiliyi və ya NFFE-nin təsis sənədləri NFFE-nin ləğv edilməsi və ya buraxılması halında onun bütün əmlakı dövlət təşkilatına və ya digər qeyri-kommersiya təşkilatına verilməsinə və ya NFFE-nin rezidenti olduğu dövlətin və ya onun hər hansı inzibati ərazi vahidinin xəzinəsinə keçməsini tələb edir.

5. **Qabaqcadan mövcud olan hesab.** Qabaqcadan mövcud olan hesab dedikdə, 30 iyun 2014-cü il tarixinə hesabat verən maliyyə institutunda olan maliyyə hesabını bildirir.

C. **Hesab balansının toplanılması və valyuta hesablama qaydaları.**

1. **Fiziki şəxslərə məxsus olan hesabların toplanılması.** Şəxsin malik olduğu maliyyə hesablarının cəmi balansının və ya dəyərinin müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan onun kompüterləşdirilmiş sistemlərinin müştəri nömrəsi və ya vergi ödəyicisinin identifikasiya nömrəsi kimi informasiya elementinə istinad etməklə maliyyə hesablarını əlaqələndirməsi və hesabların balansları və ya dəyərinin toplanılmasına imkan yaratması şərti ilə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu və ya Əlaqəli Müəssisədə olan bütün maliyyə hesablarını toplaması tələb olunur. Bu 1 saylı bənddə toplama ilə bağlı təyin olunan tələblərin tətbiq edilməsi məqsədilə, müştərək maliyyə hesabının cəmi balansı və ya dəyəri bir müştərək maliyyə hesabının hər bir sahibinə aid ediləcəkdir.

2. **Müəssisə hesablarının toplanılması.** Müəssisəyə məxsus Maliyyə Hesablarının cəmi balans və ya dəyərinin müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan onun kompüterləşdirilmiş sistemlərinin müştəri nömrəsi və ya vergi ödəyicisinin identifikasiya nömrəsi kimi informasiya elementinə istinad etməklə maliyyə hesablarını əlaqələndirməsi və hesabların balansları və ya dəyərinin toplanılmasına imkan yaratması şərti ilə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu və ya Əlaqəli Müəssisədə olan bütün maliyyə hesablarını nəzərə alması tələb edilir.

3. **Müştərilərlə iş üzrə menecerlərə şamil olunan xüsusi toplama qaydaları.** Maliyyə hesabının yüksək dəyərli hesab olub-olmamasını müəyyən etmək üçün şəxsin malik olduğu maliyyə hesablarının cəmi qalığı və ya dəyərinin müəyyən edilməsi məqsədi ilə eyni zamanda Azərbaycan Respublikasının hesabat verən maliyyə institutundan müştərilərlə iş üzrə menecerin bildiyi və bilməyə əsası olduğu eyni şəxsin birbaşa və ya dolayısı ilə malik olduğu, tərəfindən idarə edilən və ya açılan (etibar edilmiş şəxs qismində istisna olmaqla) maliyyə hesabları halında, bu cür hesabların hamısını toplaması tələb edilir.

4. **Valyuta hesablama qaydası.** ABŞ dollarından fərqli valyutada ifadə edilmiş maliyyə hesablarının qalığı və ya dəyərinin müəyyən edilməsi məqsədi ilə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu 1 saylı Əlavədə göstərilmiş ABŞ dollarında olan limit məbləğlərini Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun qalığı və ya dəyərini müəyyən etdiyi təqvim ilindən əvvəlki təqvim ilinin sonuncu gününə dərc edilən spot-kursundan istifadə etməklə həmin valyutaya çevirməlidir.

D. **Yazılı dəlillər.** Bu 1 saylı Əlavənin məqsədləri baxımından qəbul edilə bilən yazılı dəlillər aşağıdakılardan hər hansı birini ehtiva edir:

1. Ödənişi alan şəxsin rezidenti olduğunu iddia etdiyi ölkənin səlahiyyətli dövlət orqanı (misal üçün hökumət, onun orqanı və ya bələdiyyə) tərəfindən verilən rezident statusu haqqında arayış.

2. Fiziki şəxsə münasibətdə səlahiyyətli dövlət orqanı (misal üçün hökumət, onun orqanı və ya bələdiyyə) tərəfindən verilən və şəxsin adını göstərən və bir qayda olaraq, identifikasiya məqsədi üçün istifadə olunan istənilən etibarlı şəxsiyyəti təsdiq edən sənəd.

3. Müəssisəyə münasibətdə səlahiyyətli dövlət orqanı (misal üçün hökumət, onun orqanı və ya bələdiyyə) tərəfindən verilən və Müəssisənin adını, rezidenti olduğunu iddia etdiyi ölkədə (və ya ABŞ ərazisində) olan baş ofisinin ünvanını və ya Müəssisənin qeydiyyatdan keçdiyi və ya təşkil edildiyi ölkədə (və ya ABŞ ərazisində) ünvanını göstərən hər hansı rəsmi sənəd.

4. QI müqaviləsi (ABŞ Xəzinədarlıq Qaydalarında təsvir edildiyi kimi) ilə bağlı IRS tərəfindən təsdiq edilmiş çirkli pulların yuyulmasına qarşı qaydaları olan ölkədə saxlanılan maliyyə hesabına münasibətdə, W-8 və ya W-9 formaları istisna olmaqla, fiziki şəxslərin və ya müəssisələrin müəyyən edilməsi üçün ölkənin QI müqaviləsinə edilmiş əlavədə istinad edilən istənilən sənəd.

5. İstənilən maliyyə hesabatı, üçüncü tərəfin kredit hesabatı, iflasın elanı və ya ABŞ Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyasının hesabatı.

E. <u>Həyat yığım sığortası müqaviləsinin fərdi benefisiarının sahib olduğu maliyyə hesabları üçün alternativ prosedurlar.</u> Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu ölümə görə sığorta ödənişini alan həyat yığım sığorta müqaviləsinin fərdi benefisiarının (sahibdən başqa) Müəyyən olunmuş ABŞ şəxsi olmamasını güman edə bilər və benefisiarın müəyyən olunmuş ABŞ Şəxsi olmasını bilənədək və ya belə hesab etməyə əsası olanadək belə maliyyə hesabına ABŞ-ın hesabat verilməli hesabı kimi yanaşmaya bilər. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun, özünün topladığı və benefisiar ilə əlaqəli olan məlumatda bu Əlavənin 2-ci bölməsinin B(1) yarımbəndində qeyd edilən ABŞ əlaməti əks olunarsa, həyat yığım sığortası müqaviləsinin benefisiarının müəyyən olunmuş ABŞ şəxsi hesab etməsinə əsası vardır. Azərbaycan Respublikasının hesabat verən maliyyə institutunun benefisiarın müəyyən olunmuş ABŞ şəxsi olmasına dair faktiki məlumatı olarsa və ya belə hesab etməyə əsası olarsa, Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu bu Əlavənin 2-ci bölməsinin B(3) yarımbəndində qeyd edilən prosedurlara riayət etməlidir.

F. <u>Üçüncü şəxslərə etibar etmə.</u> Bu Əlavənin 1-ci bölməsinin C bəndinə əsasən seçimin edilib-edilməməsindən asılı olmayaraq, Azərbaycan Respublikası Azərbaycan Respublikasının hesabat verən maliyyə institutuna üçüncü şəxslərin həyata keçirdiyi müvafiq yoxlama prosedurlarına ABŞ Xəzinədarlıq Qaydalarında nəzərdə tutulmuş həddə əsaslanmasına icazə verə bilər.

G. <u>Bu Sazişin qüvvəyə minməsinə kimi açılmış yeni hesablar üzrə alternativ prosedurlar.</u>

1. **Tətbiq edilə bilmə.** Azərbaycan Respublikası 1 iyul 2014-cü il tarixinə kimi Azərbaycan Respublikasının hesabat Verən Maliyyə İnstitutundan i) Fiziki şəxslərə məxsus yeni hesabların Hesab Sahiblərindən bu Əlavənin III bölməsində müəyyənləşdirilmiş özünü qiymətləndirmə sənədini təqdim etmələrini tələb etməyi, və ya ii) bu Əlavənin V bölməsində müəyyən edilmiş Yeni Müəssisə Hesabları ilə bağlı bütün lazımi yoxlama prosedurlarını yerinə yetirməyi tələb etmək üçün hüquqi səlahiyyətlərinin olmaması barədə Amerika Birləşmiş Ştatlarına bu Sazişin qüvvəyə minməsinə kimi yazılı bildiriş verərsə, Azərbaycan Respublikasının Maliyyə İnstitutları bu Əlavədə müəyyənləşdirilmiş prosedurların əvəzinə tələb olunan hallardan asılı olaraq bu bölmənin G(2) yarımbəndində verilmiş alternativ prosedurları tətbiq edə bilər. Bu bölmənin G(2) yarımbəndində verilmiş alternativ prosedurlar yalnız i) Azərbaycan Respublikasının tələb olunan hallardan asılı olaraq bu Əlavənin III və ya V bölməsində verilmiş hərtərəfli yoxlama prosedurlarını yerinə yetirməyi Azərbaycan Respublikasının hesabat verən maliyyə institutlarından tələb etməyə səlahiyyəti olduğu və bu Sazişin qüvvəyə minməsi tarixinə kimi barəsində ABŞ-a yazılı məlumat verilməli tarixə və ya ii) bu Sazişin qüvvəyə mindiyi tarixə kimi, hansının daha tez baş verməsindən asılı olaraq, açılmış Fiziki şəxslərə məxsus yeni hesablara və ya Yeni Müəssisə Hesablarına münasibətdə tətbiq edilə bilər. 1 iyul 2014-cü il tarixində və ya bu tarixdən sonra 1 yanvar 2015-ci il tarixinə kimi açılmış Yeni Müəssisə Hesabları üçün bu bölmənin H bəndində verilmiş alternativ prosedurlar bütün Yeni Müəssisə Hesablarına və ya belə hesabların aydın müəyyən olunmuş qrupuna münasibətdə tətbiq edilirsə, G bəndində verilmiş alternativ prosedurlar bu cür Yeni Müəssisə Hesablarına münasibətdə tətbiq edilə bilməz. Bütün digər Yeni Hesablar üçün Azərbaycan Respublikasının hesabat verən maliyyə institutları hesabın ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı olmasını müəyyənləşdirməkdən ötrü tələb olunan hallardan asılı olaraq bu Əlavənin III və ya V bölməsində verilmiş hərtərəfli yoxlama prosedurlarını tətbiq etməlidirlər.

2. **Alternativ prosedurlar.**

   a) Bu Sazişin qüvvəyə mindiyi tarixdən sonra bir il ərzində Azərbaycan Respublikasının hesabat verən maliyyə institutları i) bu bölmənin G (1) yarımbəndində verilmiş Fiziki şəxslərə məxsus yeni hesablara münasibətdə bu Əlavənin III bölməsində müəyyənləşdirilmiş özünüqiymətləndirmə sənədini tələb etməli və bu Əlavənin III bölməsində verilmiş prosedurlara uyğun bu cür özünüqiymətləndirmə sənədinin əsaslılığını təsdiqləməli və ii) bu bölmənin G (1) yarımbəndində verilmiş Yeni Müəssisə Hesablarına münasibətdə bu Əlavənin V bölməsində müəyyənləşdirilmiş hərtərəfli yoxlama prosedurlarını yerinə yetirməli və bu Əlavənin V bölməsində tələb edildiyi kimi hər hansı özünüqiymətləndirmə sənədi daxil olmaqla, hesabla bağlı sənədləşməni aparmaq üçün zəruri olduqda məlumatlar tələb etməlidir.

   b) Azərbaycan Respublikası bu bölmənin G (2) (a) yarımbəndinə əsasən, müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edilmiş hər hansı Yeni Hesab barədə aşağıdakı tarixlərdən daha gec olan tarixə i) hesabın müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edildiyi tarixdən sonra gələn

növbəti 30 Sentyabr tarixinə və ya ii) hesabın müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edilməsindən sonra 90 günün başa çatdığı tarixə kimi hesabat verməlidir. Bu cür Yeni Hesaba münasibətdə hesabat verilməli məlumatlar, əgər hesab onun açıldığı tarixə müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edilmiş olsa, bu Sazişə əsasən verilməli olan məlumatlardır.

c) Bu Sazişin qüvvəyə mindiyi tarixdən sonra 1 ilin keçdiyi tarixə kimi Azərbaycan Respublikasının hesabat verən maliyyə institutları bu bölmənin G (2) (a) yarımbəndində verilmiş prosedurlara uyğun olaraq barəsində tələb edilən özünüqiymətləndirmə və ya digər sənədlərin toplanılması mümkün olmayan bu bölmənin G (1) yarımbəndində verilmiş hər hansı Yeni Hesabı bağlamalıdır. Bundan əlavə, bu Sazişin qüvvəyə mindiyi tarixdən sonra 1 ilin keçdiyi tarixə kimi Azərbaycan Respublikasının hesabat verən maliyyə institutları i) bağlandığı tarixə kimi Fiziki şəxslərə məxsus yeni hesablar (Yüksək Dəyərli Hesablar olmasından asılı olmayaraq) olmuş bu cür bağlanmış hesablara münasibətdə bu Əlavənin II bölməsinin D bəndində müəyyənləşdirilmiş hərtərəfli yoxlama prosedurlarını və ya ii) bağlandığı tarixə kimi Yeni Müəssisə Hesabları olmuş bu cür bağlanmış hesablara münasibətdə bu Əlavənin IV bölməsində müəyyənləşdirilmiş hərtərəfli yoxlama prosedurlarını yerinə yetirməlidirlər.

d) Azərbaycan Respublikası bu bölmənin G (2) (c) yarımbəndinə əsasən, müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edilmiş hər hansı bağlanmış hesab barədə aşağıdakı tarixlərdən daha gec olan tarixə i) hesabın müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edildiyi tarixdən sonra gələn növbəti 30 Sentyabr tarixinə və ya ii) hesabın müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edilməsindən sonra 90 günün başa çatdığı tarixə kimi hesabat verməlidir. Bu cür bağlanmış hesaba münasibətdə hesabat verilməli məlumatlar, əgər hesab onun açıldığı tarixə müvafiq olaraq ABŞ-ın hesabat verilməli hesabı və ya iştirakçı olmayan maliyyə institutunun hesabı kimi müəyyən edilmiş olsa, bu Sazişə əsasən verilməli olan məlumatlardır.

H. **1 iyul 2014-cü il tarixində və ya bu tarixdən sonra 1 yanvar 2015-ci il tarixinə kimi açılmış Yeni Müəssisə Hesablarına münasibətdə Alternativ Prosedurlar.** 1 iyul 2014-cü il tarixində və ya bu tarixdən sonra 1 yanvar 2015-ci il tarixinə kimi açılmış Yeni Müəssisə Hesabları üçün, bütün Yeni Müəssisə Hesablarına və ya ayrılıqda, bu cür hesabların aydın müəyyən olunmuş hər hansı qrupuna münasibətdə Azərbaycan Respublikasının hesabat verən maliyyə institutları tərəfindən bu cür hesabların Qabaqcadan mövcud olan müəssisə hesabları kimi qiymətləndirilməsinə və bu Əlavənin V bölməsində müəyyənləşdirilmiş hərtərəfli yoxlama prosedurlarının əvəzinə bu Əlavənin IV bölməsində müəyyənləşdirilmiş Qabaqcadan mövcud olan müəssisə hesabları ilə bağlı hərtərəfli yoxlama prosedurlarının yerinə yetirilməsinə Azərbaycan Respublikası icazə verə bilər. Bu halda, bu Əlavənin IV bölməsinin hərtərəfli yoxlama prosedurları bu Əlavənin IV bölməsinin A bəndində

müəyyənləşdirilmiş hesabın balans və ya dəyər limitindən asılı olmayaraq yerinə yetirilməlidir.

2 Saylı Əlavə

Aşağıdakı Müəssisələr imtiyazlı benefisiar yaxud əməl edən hesab olunan xarici maliyyə institutları hesab olunmalıdır və aşağıdakı hesablar maliyyə hesabı anlayışına daxil edilmir.

Bu 2 saylı Əlavə Azərbaycan Respublikasının və Birləşmiş Ştatların səlahiyyətli orqanlarının qarşılıqlı yazılı qərarları əsasında (1) ABŞ şəxsləri tərəfindən ABŞ vergisindən yayınma üçün istifadə olunması riski az olan və Sazişin imzalandığı tarixdə bu Əlavədə qeyd olunan müəssisə və hesablarla oxşar əlamətlərə malik olan əlavə hüquqi şəxlər və hesablar daxil edilməklə; yaxud (2) Vəziyyətin dəyişməsi səbəbindən ABŞ şəxsləri tərəfindən ABŞ vergisindən yayınma üçün istifadə olunması riski olmayan müəssisə və hesabları çıxarmaqla dəyişdirilə bilər. Başqa hal nəzərdə tutulmamışdırsa, hər hansı bu cür əlavə yaxud çıxarılma bu cür qarşılıqlı qərarın imzalandığı tarixdən qüvvəyə minir. Bu cür qarşılıqlı qərarların verilməsi proseduru Sazişin 3-cü maddəsinin 6-cı paraqrafında göstərilmiş qarşılıqlı müqavilə və ya razılaşmaya daxil edilə bilər.

I. **Fondlardan başqa digər imtiyazlı benefisiarlar.** Aşağıdakı müəssisələr, xüsusi sığorta təşkilatı, Depozitar, yaxud bank fəaliyyətini həyata keçirən təşkilat tərəfindən kommersiya xarakterli fəaliyyətlə əlaqədar yaranan öhdəliklərlə bağlı edilən ödənişlər ***istisna olmaqla***, ABŞ-ın Daxili Gəlirlər Məcəlləsinin 1471 və 1472-ci maddələrinin məqsədləri baxımından Azərbaycan Respublikasının hesabat verməli olmayan maliyyə institutu və imtiyazlı benefisiarları hesab olunacaqdır.

A. **Dövlət qurumu.** Azərbaycan Respublikası hökuməti, Azərbaycan Respublikasının hər hansı siyasi alt-qurumu (hansı ki, şübhəyə yer verməmək məqsədilə, dövlət, əyalət və ya bələdiyyəni əhatə edir), yaxud Azərbaycan Respublikasının dövlət mülkiyyətində olan qurumu və ya vasitəçisi, yaxud yuxarıda qeyd olunanlardan biri yaxud bir neçəsi (hər biri "Azərbaycan Respublikasının dövlət qurumu"). Bu kateqoriyaya Azərbaycan Respublikasının tərkib hissələri, idarə olunan qurumlar və siyasi alt qurumlar daxildir.

1. Azərbaycan Respublikasının tərkib hissəsi dedikdə, Azərbaycan Respublikasının səlahiyyətli şəxsi sayılan hər hansı fiziki şəxs, təşkilat, agentlik, büro, fond, vasitəçi və digər qurum nəzərdə tutulur. Səlahiyyətli şəxsin xalis gəlirləri onun öz hesabına yaxud Azərbaycan Respublikasının digər hesabına köçürülməli, və onun heç bir hissəsi hər hansı xüsusi-hüquqi şəxsin xeyrinə (hesabına) köçürülməməlidir. Tərkib hissəyə xüsusi-hüquqi şəxs yaxud fərd qismində çıxış edən suveren, rəsmi və yaxud inzibatçı şəxs olan hər hansı fiziki şəxs daxil deyil.

2. İdarə olunan qurum dedikdə, formaca Azərbaycan Respublikasından ayrı olan və ya ayrı hüquqi şəxs qismində çıxış edən qurum nəzərdə tutulur, o şərtlə ki:

   a) Qurum birbaşa yaxud bir və ya bir neçə idarə olunan qurum vasitəsilə Azərbaycan Respublikasının bir və ya bir neçə dövlət qurumuna məxsusdur və onlar tərəfindən idarə olunur;

   b) Qurumun xalis gəlirləri öz hesabına yaxud Azərbaycan Respublikasının bir və ya bir neçə dövlət qurumunun hesabına köçürülür və heç bir hissəsi hər hansı xüsusi-hüquqi şəxs xeyrinə (hesabına) köçürülmür; və

c) Qurumun ləğvi zamanı onun aktivləri Azərbaycan Respublikasının bir və ya bir neçə dövlət qurumunun balansına keçir.

3. Əgər xüsusi-hüquqi şəxslər hökumət proqramının nəzərdə tutulan benefisiarlarıdırsa və proqram fəaliyyəti ümumi rifah məqsədilə ictimaiyyət üçün keçirilirsə yaxud hökumətin müəyyən fazasının idarə olunması ilə bağlıdırsa, onda gəlir bu şəxsin xeyrinə işləmir. Yuxarıda qeyd olunanlara baxmayaraq, əgər gəlir xüsusi-hüquqi şəxslərə maliyyə xidməti göstərməklə (məsələn, kommersiya bankçılığı) kommersiya fəaliyyətini həyata keçirmək üçün dövlət qurumundan istifadə etməklə əldə olunursa, onda bu gəlir xüsusi-hüquqi şəxsin xeyrinə işləyir.

B. **Beynəlxalq təşkilat.** Hər hansı beynəlxalq təşkilat yaxud onun sahibi olduğu agentlik yaxud vasitəçi. Bu kateqoriyaya (1) başlıca olaraq ABŞ hökumətindən başqa hökumətlərdən ibarət olan; (2) Azərbaycan Respublikası ilə baş qərargah barəsində qüvvədə olan sazişi olan; və (3) gəliri xüsusi-hüquqi şəxsin xeyrinə işləməyən hər hansı hökumətlərarası təşkilat (o cümlədən, alt qurum səviyyəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar) daxildir.

C. **Mərkəzi Bank.** Valyuta şəklində dövr etməsi məqsədilə vasitələr buraxan Azərbaycan Respublikasının özündən başqa qanunvericiliklə yaxud hökumət sanksiyası ilə əsas orqan olan institut. Bu instituta Azərbaycan Respublikasının hökumətindən ayrı olan vasitəçi orqan (Azərbaycan Respublikasının tam yaxud qismən sahib olmasından asılı olmayaraq) da daxil ola bilər.

II. **İmtiyazlı Benefisiarlar hesab olunan fondlar.** Aşağıdakı hüquqi şəxslər ABŞ-ın Daxili Gəlirlər Məcəlləsinin 1471 və 1472-ci maddələrinin məqsədləri baxımından Azərbaycan Respublikasının hesabat verməli olmayan maliyyə institutu və imtiyazlı benefisiarları hesab olunur.

A. **Geniş tərkibli təqaüd fondu.** Göstərilmiş xidmətlər müqabilində bir və ya bir neçə işə götürənin hazırkı və ya keçmiş işçiləri (yaxud onların müəyyən etdiyi şəxslərə) olan benefisiarlara təqaüd, əlillik yaxud ölüm müavinətləri (yaxud onların birlikdə formasını) verən Azərbaycan Respublikasında təsis olunmuş fond, o şərtlə ki:

1. Fondun aktivlərinin 5 faizindən çoxuna malik olan tək benefisiar yoxdur;

2. Fond qanunvericiliklə tənzimlənir və Azərbaycan Respublikasının vergi orqanlarına öz benefisiarları barədə illik hesabat verir; və

3. Aşağıdakı tələblərdən ən azı birinə cavab verir:

a) Özünün təqaüd və ya pensiya planı statusuna görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən investisiya gəlirləri üzrə ümumilikdə vergidən azaddır;

b) Fond cəmi ödənişlərin ən azı 50 faizini sponsor işə götürənlərdən alır (bu bölmənin A-C paraqraflarında göstərilən digər planlarından və ya bu 2 saylı Əlavənin 5-ci bölməsinin A(1) alt paraqrafında göstərilən təqaüd yaxud pensiya hesablarından köçürülən aktivlərdən başqa);

c) Fonddan pulların köçürülməsi yaxud tutulması yalnız təqaüd, əlillik və ya ölüm hadisələrinin baş verməsi ilə mümkündür (bu bölmənin A-C paraqraflarında göstərilən digər planlarına və ya bu 2 saylı Əlavənin 5-ci bölməsinin A(1) alt paraqrafında göstərilən təqaüd yaxud pensiya hesablarına revolver (bərpa olunan) köçürmələr istisna olmaqla), yaxud belə hadisələrdən əvvəl həyata keçirilən köçürməyə yaxud tutulmaya görə cərimələr tətbiq olunur; yaxud

d) İşçilərin fonda etdikləri ödənişlərin məbləği (icazə verilmiş make-up ödənişlərdən başqa) işçinin qazandığı gəlirdən yaxud hesabın toplanması və valyutanın çevrilməsi üzrə 1 saylı Əlavədə qeyd olunmuş qaydalar tətbiq edilməklə, illik olaraq 50 000 dollardan çox ola bilməz.

B. **Məhdud tərkibli təqaüd fondu.** Göstərilmiş xidmətlər müqabilində bir və ya bir neçə işə götürənin hazırkı və ya keçmiş işçiləri (yaxud onların müəyyən etdiyi şəxslərə) olan benefisiarlara təqaüd, əlillik yaxud ölüm müavinətləri verən Azərbaycan Respublikasında təsis olunmuş fond, o şərtlə ki:

1. Fondun iştirakçılarının sayı 50-dən azdır;

2. Fonda investisiya təşkilatı yaxud passiv maliyyə institutu olmayan hüquqi şəxs (bundan sonra "NFFE") olmayan bir və ya bir neçə işə götürən sponsorluq edir;

3. İşçinin və işə götürənin fonda etdiyi ödənişlərin həcmi (2 saylı Əlavənin 5-ci bölməsinin A(1) alt paraqrafında göstərilən təqaüd yaxud pensiya hesablarından aktivlərin köçürülməsindən başqa) müvafiq olaraq işçinin qazandığı gəlir və kompensasiyadan artıq ola bilməz;

4. Azərbaycan Respublikasının rezidenti olmayan iştirakçılar fondun aktivlərinin 20 faizindən artıq paya sahib olmaq hüququna malik deyil; və

5. Fond qanunvericiliklə tənzimlənir və Azərbaycan Respublikasının vergi orqanlarına öz benefisiarları barədə illik hesabat verir.

C. **İmtiyazlı benefisiarın pensiya fondu.** Göstərilmiş xidmətlər müqabilində bir və ya bir neçə işə götürənin hazırkı və ya keçmiş işçiləri (yaxud onların müəyyən etdiyi şəxslərə) olan benefisiarlara yaxud iştirakçılara təqaüd, əlillik yaxud ölüm müavinətləri verən imtiyazlı benefisiar tərəfindən Azərbaycan Respublikasında təsis edilmiş fond. Bu cür benefisiarlara verilən müavinətlər imtiyazlı benefisiara təqdim olunan özəl xidmətlər müqabilində verilməlidir.

D. **İmtiyazlı benefisiarın tam mülkiyyətində olan investisiya təşkilatı.** Sadəcə investisiya təşkilatı olduğuna görə Azərbaycan Respublikasının maliyyə institutu hesab olunan hüquqi şəxs, o şərtlə ki, bu hüquqi şəxsin kapitalında olan hər bir birbaşa pay sahibi imtiyazlı benefisiardır və öhdəliyində olan hər bir birbaşa pay sahibi ya (bu təşkilata verdiyi kreditə münasibətdə) bank fəaliyyəti həyata keçirən təşkilat yaxud imtiyazlı benefisiardır.

III. **Əməl edən hesab olunan xarici maliyyə institutları kimi qiymətləndirilən kiçik və ya məhdud əhatəli maliyyə institutları.** Aşağıdakı maliyyə institutları ABŞ-ın Daxili Gəlirlər Məcəlləsinin 1471 -ci maddələrinin məqsədləri üçün əməl edən hesab olunan maliyyə institutu

kimi qiymətləndiriləcək Azərbaycan Respublikasının hesabat verməli olmayan maliyyə institutlarıdır.

A. **Yerli müştəri bazası olan maliyyə institutu.** Aşağıdakı tələblərə cavab verən maliyyə institutu:

1. Maliyyə institutu Azərbaycan Respublikasının qanunvericiliyi üzrə maliyyə institutu kimi lisenziyaşdırılmalı və tənzimlənməlidir;

2. Maliyyə institutu Azərbaycan Respublikasından kənarda sabit fəaliyyət yerinə malik olmamalıdır. Bu məqsədlə sabit fəaliyyət yeri ictimaiyyətə elan edilməyən və Maliyyə institutunun yalnız inzibati dəstək funksiyalarını yerinə yetirdiyi yeri ehtiva etmir;

3. Maliyyə institutu Azərbaycan Respublikasından kənarda müştərilərə yaxud hesab sahiblərinə öz xidmətlərini təklif etməməlidir. Bu məqsədlə, maliyyə institutu sadəcə (a) internet səhifəsində konkret şəkildə onun qeyri-rezidentlərə maliyyə hesabları və ya xidmətləri təklif etdiyini bildirməməsi və bunun xaricində ABŞ müştəri və ya hesab sahiblərini hədəf götürməməsi yaxud təkidlə onları cəlb etməməsi şərti ilə internet sayta malik olduğuna, və ya (b) başlıca olaraq Azərbaycan Respublikası ərazisində, həmçinin təsadüfən digər ölkələrin ərazisində də yayımlanan mətbuatda, radio və televiziya kanallarında qeyri-rezidentlərə maliyyə hesabları və ya xidmətləri təklif etdiyini bildirməməsi və bunun xaricində ABŞ müştəri və ya hesab sahiblərini hədəf götürməməsi yaxud təkidlə onları cəlb etməməsi şərti ilə reklam verdiyinə görə Azərbaycan Respublikasından kənarda olan müştərilərə yaxud hesab sahiblərinə xidmətlər təklif edən institut hesab edilməməlidir;

4. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə institutları rezidentlərə məxsus maliyyə hesablarına münasibətdə hesabat almaq və ya ödəmə mənbəyində vergi tutmaq yaxud Azərbaycan Respublikasının AML yoxlama tələbləri məqsədi ilə rezident hesab sahiblərini müəyyən etməlidir;

5. Maliyyə institutu tərəfindən saxlanılan maliyyə hesablarının dəyər baxımından ən azı 98%-i Azərbaycan Respublikasının rezidentləri (rezident hüquqi şəxslər daxil olmaqla) tərəfindən saxlanılmalıdır;

6. 1 iyul 2014-cü il tarixindən və ya ondan əvvəl başlayaraq, 1 saylı Əlavədə göstərilənlərə uyğun olaraq, maliyyə institutunun iştirakçı olmayan maliyyə institutuna maliyyə hesablarını verməsinin qarşısını almaq və Azərbaycan Respublikasının rezidenti olmayan hər hansı müəyyən olunmuş ABŞ Şəxsi üçün (maliyyə hesabı açılan zaman Azərbaycan Respublikasının rezidenti olmuş, lakin sonradan Azərbaycan Respublikasının rezidentliyindən çıxan ABŞ şəxsləri daxil olmaqla) və ya nəzarət edən şəxsləri Azərbaycan Respublikasının rezidentləri olmayan ABŞ rezidentləri və ya ABŞ vətəndaşları olan passiv NFFE-nin monitorinqini həyata keçirmək üçün qayda və prosedurları olmalıdır;

7. Bu cür qayda və prosedurlar, hər hansı maliyyə hesabının Azərbaycan Respublikasının rezidenti olmayan müəyyən olunmuş ABŞ şəxsi tərəfindən və ya Azərbaycan Respublikasının rezidenti olmayan ABŞ rezidentləri və ya ABŞ vətəndaşları olan nəzarət edən şəxsləri olan passiv NFFE tərəfindən saxlanıldığı müəyyən edilərsə, maliyyə

İnstitutu Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu olduğu halda tələb edildiyi kimi (IRS-in FATCA qeydiyyatı üzrə internet səhifəsində tətbiq olunan qeydiyyat tələbləri daxil olmaqla) belə maliyyə hesabları barədə hesabat verməli və ya belə maliyyə hesabını bağlamalıdır;

8. Azərbaycan Respublikasının rezidenti olmayan fiziki şəxs və ya müəssisəyə məxsus əvvəlcədən mövcud olan hesabla bağlı Maliyyə İnstitutu ABŞ-ın hər hansı hesabat verilməli hesabına və ya iştirakçı olmayan maliyyə institutuna məxsus maliyyə hesabını müəyyən etmək üçün 1 saylı Əlavə ilə müəyyən edilən və əvvəlcədən mövcud olan hesablara tətbiq olunan prosedurlara uyğun olaraq əvvəlcədən mövcud olan hesabları yoxlamalı və maliyyə institutu Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu olduğu təqdirdə tələb edildiyi kimi (IRS-in FATCA qeydiyyatı üzrə internet səhifəsində tətbiq olunan qeydiyyat tələbləri daxil olmaqla) belə maliyyə hesabları barədə hesabat verməli və ya belə maliyyə hesabını bağlamalıdır;

9. Maliyyə institutunun maliyyə institutu olan hər bir əlaqəli müəssisəsi Azərbaycan Respublikasında təsis edilməli və bu 2 saylı Əlavənin 2-ci bölməsinin A-C bəndlərində qeyd olunan təqaüd fondu olan istənilən əlaqəli müəssisə istisna olmaqla A bəndində irəli sürülən tələbləri ödəməlidir; və

10. Maliyyə institutunun siyasət və işgüzar adətləri müəyyən olunmuş ABŞ şəxsləri və Azərbaycan Respublikasının rezidentləri olan şəxslər üçün maliyyə hesablarının açılması və ya saxlanılmasında ayrı-seçkilik yaratmamalıdır.

B. **Yerli Bank.** Aşağıdakı tələblərə cavab verən Maliyyə İnstitutu:

1. Maliyyə İnstitutu sadəcə gəlir əldə etməyən (a) bank və ya (b) kredit birliyi və ya oxşar kooperativ kredit təşkilatı kimi fəaliyyət göstərir (və Azərbaycan Respublikasının qanunları çərçivəsində lisenziyalaşdırılır və tənzimlənir);

2. Maliyyə institutunun fəaliyyətinə bank üçün əsasən kənar pərakəndə müştərilərdən depozitlərin cəlb olunması və onlara kreditlərin verilməsi, kredit birliyi və ya oxşar kooperativ kredit təşkilatı üçün isə bu cür kredit birliyi və ya kooperativ kredit təşkilatında beş faizdən artıq paya malik olmaması şərti ilə üzvlərə kreditlərin verilməsi daxildir;

3. Bu bölmənin A(3) yarımbəndində internet səhifəsi ilə bağlı qeyd olunan məhdudiyyətlərə əlavə olaraq, internet səhifəsi vasitəsi ilə hər hansı maliyyə hesabının açılmasına yol verilməməsi şərti ilə Maliyyə İnstitutu bu bölmənin A(2) və A(3) yarımbəndlərində qeyd edilən tələblərə cavab verir;

4. Maliyyə institutunun balans hesabatında cəmi aktivlərinin həcmi 175 milyon ABŞ dolları məbləğindən yuxarı deyil və maliyyə institutu və onun istənilən əlaqəli müəssisəsinin konsolidasiya edilmiş balans hesabatlarında cəmi aktivlərinin həcmi 500 milyon ABŞ dolları məbləğindən yuxarı deyil; və

5. İstənilən əlaqəli müəssisə Azərbaycan Respublikasında təsis yaxud təşkil edilməli və bu Əlavənin 2-ci bölməsinin A-C bəndlərində göstərilən təqaüd fondu olan əlaqəli müəssisə və ya bu bölmənin C bəndində göstərilən yalnız aşağı dəyər hesablı maliyyə hesabları

istisna olmaqla, maliyyə institutu olan istənilən əlaqəli müəssisə B bəndində müəyyən edilən tələbləri yerinə yetirməlidir.

C. **Yalnız aşağı dəyərli hesablara malik maliyyə institutları.** Aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının maliyyə institutu:

1. Maliyyə institutu investisiya təşkilatı deyil;

2. Maliyyə institutu, yaxud onun Əlaqəli Müəssisəsi tərəfindən aparılan heç bir maliyyə hesabının qalığı və ya dəyəri 1 saylı Əlavədə hesabın toplanması və valyutanın çevrilməsi ilə bağlı müəyyən olunan qaydalar nəzərə alınmaqla 50 000 ABŞ dollarından yuxarı deyil; və

3. Maliyyə institutunun balans hesabatında cəmi aktivlərinin həcmi 50 milyon ABŞ dolları məbləğindən yuxarı deyil və maliyyə institutu və onun istənilən Əlaqəli Müəssisəsinin konsolidasiya edilmiş balans hesabatlarında cəmi aktivlərinin həcmi 50 milyon ABŞ dolları məbləğindən yuxarı deyil.

D. **İxtisaslı Kredit Kart Emitenti.** Aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının maliyyə institutu:

1. Maliyyə institutu yalnız müştəri kartla bağlı ödəniş tarixinə ödənilməli olan məbləğdən artıq ödəniş etdiyi halda və bu artıq ödəniş dərhal müştəriyə qaytarılmadığı təqdirdə depozitləri qəbul edən kredit kartları emitenti olduğuna görə maliyyə institutudur; və

2. 1 iyul 2014-cü il tarixində və ya ondan öncə başlayaraq, maliyyə institutu, 1 saylı Əlavədə hesabın toplanması və valyutanın çevrilməsi ilə bağlı müəyyən olunan qaydalar nəzərə alınmaqla, 50 000 ABŞ dolları məbləğindən yuxarı depozitin yerləşdirilməsinin qarşısını almaq, yaxud həcmi 50 000 ABŞ dollarından yuxarı olan depozit məbləğinin 60 gün ərzində müştəriyə qaytarılmasını təmin etmək üçün qayda və prosedurlar tətbiq edir. Bu məqsədlə, müştəri depozitinə mübahisəli haqlar həcmində kredit balansı aid deyil, lakin malların qaytarılması nəticəsində yaranan kredit balansı aiddir.

IV. **Əməl edən hesab edilən xarici maliyyə institutları kimi dəyərləndirilən investisiya təşkilatları və digər xüsusi qaydalar.** Bu bölmənin A-E bəndlərində qeyd edilən maliyyə institutları ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471-ci bölməsinin məqsədləri üçün əməl edən hesab edilən xarici maliyyə institutları kimi qiymətləndirilir. Bununla yanaşı, bu bölmənin F bəndində investisiya təşkilatına tətbiq edilən xüsusi qaydalar müəyyən olunur.

A. **Statusu qəyyum tərəfindən təsdiq olunan trast.** Qəyyumu ABŞ-ın hesabat verən maliyyə institutu, Model 1 üzrə hesabat verən xarici maliyyə institutu və ya iştirakçı xarici maliyyə institutu olan və trastın ABŞ-ın hesabat verilməli hesablara münasibətdə tələb olunan məlumatları bu Sazişin müvafiq müddəalarına əsasən verən Azərbaycan Respublikası qanunvericiliyinə əsasən yaradılmış trast.

B. **Maliyyələşdirilən investisiya təşkilatı və nəzarət edilən xarici şirkət.** Bu bölmənin B(3) yarımbəndinin tələblərinə cavab verən maliyyələşdirən təşkilat olan və B(1) və ya B(2) yarımbəndlərində qeyd edilən maliyyə institutudur.

1. Maliyyə institutu maliyyələşdirilən investisiya təşkilatıdır, əgər (a) bu Azərbaycan Respublikasında yaradılmış ABŞ Xəzinədarlıq idarəsinin müvafiq normativ aktlarına uyğun olaraq müvafiq bəndləri ilə əlaqəli ixtisaslaşdırılmış vasitəçi olmayan, ödəmə mənbəyində xarici partnyor olan və ya ödəmə mənbəyində xarici trast olan investisiya təşkilatıdır, (b) maliyyə institutunu maliyyələşdirən təşkilat kimi fəaliyyət göstərəcək maliyyə institutu ilə razılaşdırılmış təşkilatdır.

2. Maliyyə institutu maliyyələşdirən təşkilat tərəfindən nəzarət olunan xarici şirkətdir, əgər (a) Maliyyə institutu ABŞ Xəzinədarlıq Departamentinin qaydalarına müvafiq olaraq ixtisaslaşdırılmış vasitəçi, vergi agenti funksiyasını yerinə yetirən xarici ortaqlıq və ya vergi agenti funksiyasını yerinə yetirən trast olmayan, Azərbaycan Respublikası qanunları çərçivəsində yaradılan nəzarət edilən xarici şirkətdirsə (b) maliyyə institutu onun üçün maliyyələşdirən təşkilat kimi fəaliyyət göstərəcək maliyyə institutunun filialını tələb edən və ya tam mülkiyyətində olmaqla birbaşa və ya bilavasitə fəaliyyət göstərməyə razılıq verən ABŞ-ın hesabat verən maliyyə institutu olarsa; və (c) maliyyə institutu maliyyələşdirən təşkilat ilə ümumi elektron hesab sistemini paylaşır, ona görə ki, sonuncu maliyyələşdirən təşkilata bütün hesab sahiblərini və maliyyə institutu tərəfindən ödəniş edilənləri və müştərinin identifikasiya nömrəsi, müştəri sənədləşməsi, hesabın qalığı və hesab sahibinə və ya ödəniş alana edilən bütün ödənişlər daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan maliyyə institutları tərəfindən saxlanılan bütün hesab və müştəri məlumatlarına çıxışı təmin edir.

3. Maliyyələşdirən təşkilat aşağıdakı tələblərə cavab verir:

   a) Maliyyələşdirən təşkilat maliyyə institutunun (fond meneceri, nümayəndə, korporativ direktor və ya idarəetmə partnyoru kimi) adından IRS FATCA qeydiyyat internet səhifəsində tətbiq edilən qeydiyyat tələblərini yerinə yetirmək üçün fəaliyyət göstərmək səlahiyyətinə malikdir;

   b) Maliyyələşdirən təşkilat IRS FATCA qeydiyyat internet səhifəsində IRS-də maliyyələşdirən təşkilat kimi qeydiyyat keçmişdir;

   c) Maliyyələşdirən təşkilat maliyyə institutu ilə bağlı ABŞ-ın hər hansı hesabat verilməli hesabını müəyyən edirsə, sponsor təşkilatı maliyyə institutunu IRS FATCA qeydiyyat internet səhifəsində tətbiq olunan qeydiyyat tələblərinə uyğun olaraq 31 dekabr 2015-ci il tarixində və ya ən geci bu tarixdən əvvəl və ABŞ-ın belə hesabat verilməli hesabının ilk müəyyən edildiyi tarixdən 90 gün sonra qeydiyyatdan keçirir;

---

[1] "Nəzarət olunan xarici şirkət" dedikdə, səsvermə hüququ verən bütün növ səhmlərin cəmi səsvermə hüququnun və ya həmin şirkətin səhmlərinin ümumi dəyərinin 50 faizindən çoxu bu xarici şirkətin vergi məsuliyyəti daşıdığı il ərzindəki hər hansı bir gündə "Birləşmiş Ştatların səhmdarları"nın sahib olduğu ya da sahib olduqları nəzərdə tutulan hər hansı xarici şirkət nəzərdə tutulur. Hər hansı xarici şirkətə münasibətdə, "Birləşmiş Ştatların səhmdarı" dedikdə, belə xarici şirkətin səsvermə hüququ olan bütün növ səhmlərinin toplam birgə səsvermə səlahiyyətinin 10 faizinə sahib olan ya da sahib olduğu nəzərdə tutulan Birləşmiş Ştatlar şəxsi nəzərdə tutulur.

d) Maliyyələşdirən təşkilat, əgər maliyyə institutu Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu olsa idi, onun adından icra edilməli olan bütün zəruri yoxlama, vergitutma, hesabat vermə və digər öhdəliklərini yerinə yetirməyə razılaşır;

e) Maliyyələşdirən təşkilat maliyyə institutunu müəyyən edir və maliyyə institutunun adından tamamlanmış bütün hesabatlarda maliyyə institutunun identifikasiya nömrəsini (IRS FATCA qeydiyyat internet səhifəsində olan tətbiq olunan qeydiyyat tələbləri əsasında əldə edilən) daxil edir;

f) Maliyyələşdirən təşkilat ləğv edilmiş sponsor statusuna malik deyildir.

C. **Maliyyələşdirilən, qapalı tipli investisiya aləti.** Azərbaycan Respublikasının aşağıdakı tələblərə cavab verən maliyyə institutu:

1. Maliyyə institutu yalnız investisiya təşkilatı olduğuna görə maliyyə institutudur və ABŞ Xəzinədarlıq Departamentinin müvafiq qaydalarına əsasən ixtisaslaşdırılmış vasitəçi, vergi agenti funksiyasını yerinə yetirən xarici ortaqlıq və ya vergi agenti funksiyasını yerinə yetirən xarici trast deyildir;

2. Maliyyələşdirən təşkilat ABŞ-ın hesabat verən maliyyə institutu, Model 1 üzrə hesabat verən xarici maliyyə institutu və ya iştirakçı xarici maliyyə institutudur, maliyyə institutunun adından fəaliyyət göstərmək (peşəkar menecer, nümayəndə və ya idarə edən partnyor kimi) səlahiyyətinə malikdir və maliyyə institutu Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu olsa idi, onun adından icra edilməli olan bütün zəruri yoxlama, vergitutma, hesabat vermə və digər öhdəliklərini yerinə yetirməyə razılaşır;

3. Maliyyə institutu əlaqəli olmayan tərəflər üçün investisiya aləti kimi çıxış etmir;

4. İyirmi və ya daha az fiziki şəxs maliyyə institutunda borc öhdəliklərindəki və nizamnamə kapitalındakı bütün paylara malikdir (borc öhdəliklərində iştirakçı xarici maliyyə institutu və əməl edilən hesab edilən xarici maliyyə institutlarına məxsus olan pay və əgər müəssisə maliyyə institutunun nizamnamə kapitalındakı payların 100 faizinə malik olarsa və bu C bəndində verilmiş maliyyələşdirilən maliyyə institutu olarsa, müəssisəyə məxsus olan iştirak kapitalını nəzərə almayaraq); və

5. Maliyyələşdirən təşkilat aşağıdakı tələblərə cavab verir:

   a) Maliyyələşdirən təşkilat IRS FATCA qeydiyyat internet səhifəsində IRS-də maliyyələşdirən təşkilat kimi qeydiyyatdan keçmişdir;

   b) Maliyyələşdirən təşkilat maliyyə institutu Azərbaycan Respublikasının hesabat verən maliyyə institutu olsa idi, onun adından icra edilməli olan bütün zəruri yoxlama, vergitutma, hesabat vermə və digər öhdəliklərini yerinə yetirməyə razılaşır və 6 il müddətinə maliyyə institutu ilə bağlı toplanılmış sənədləri saxlayır;

c) Maliyyələşdirən təşkilat maliyyə institutunun adından tamamlanmış bütün hesabatlarda maliyyə institutunu müəyyən edir; və

d) Maliyyələşdirən təşkilat ləğv edilmiş sponsor təşkilatı statusuna malik deyildir.

D. **İnvestisiya məsləhəti və aktivlərin idarə olunması fəaliyyəti ilə məşğul olan şəxslər.** Azərbaycan Respublikasında təsis edilən və sadəcə iştirakçı olmayan maliyyə institutundan başqa maliyyə institutunda müştərinin adına depozitə qoyulmuş vəsaitlərin investisiyaya yönəldilməsi, idarə edilməsi və barəsində sərəncam verilməsi məqsədilə (1) müştəriyə investisiya məsləhətləri verdiyinə və ya onun adından hərəkət etdiyinə və ya (2) portfelləri müştəri üçün idarə etdiyinə və onun adından hərəkət etdiyinə görə maliyyə institutu hesab olunan investisiya təşkilatıdır.

E. **Kollektiv investisiya aləti.** Kollektiv investisiya alətində olan bütün iştirak payının (borc öhdəliklərindəki 50,000 ABŞ dollarından artıq paylar daxil olmaqla) bir və ya daha çox imtiyazlı benefisiarlara, 1 saylı Əlavənin VI bölməsinin B(4) yarımbəndində verilmiş Aktiv NFFE-lərə, Müəyyən olunmuş ABŞ şəxsləri olmayan ABŞ şəxslərinə və ya iştirakçı olmayan maliyyə institutu hesab edilməyən maliyyə institutlarına məxsus olması və ya onlar vasitəsilə saxlanılması şərtilə Azərbaycan Respublikasında təsis edilən və kollektiv investisiya aləti kimi tənzimlənən investisiya təşkilatıdır.

F. **Xüsusi qaydalar**. Aşağıdakı qaydalar İnvestisiya təşkilatına tətbiq olunur:

1. Bu bölmənin E bəndində verilmiş kollektiv investisiya aləti olan İnvestisiya təşkilatında iştirak payları ilə bağlı istənilən İnvestisiya təşkilatının (kollektiv investisiya alətində iştirak paylarının saxlanıldığı Maliyyə İnstitutlarından başqa) hesabat vermək öhdəlikləri yerinə yetirilmiş hesab ediləcəkdir.

2. Aşağıdakılarda olan iştirak payları üzrə:

a) Bütün iştirak paylarının (borc öhdəliklərində 50,000 ABŞ dollarından artıq pay daxil olmaqla) bir və ya daha çox imtiyazlı sahiblərə, 1 saylı Əlavənin VI bölməsinin B(4) yarımbəndində verilmiş Aktiv NFFE-lərə, Müəyyən olunmuş ABŞ Şəxsləri olmayan ABŞ şəxslərinə və ya İştirakçı olmayan Maliyyə İnstitutu hesab edilməyən Maliyyə İnstitutlarına məxsus olan və ya onlar vasitəsilə saxlanılan və kollektiv investisiya aləti kimi tənzimlənən Tərəfdaş Yurisdiksiyada təsis edilmiş İnvestisiya təşkilatında;

b) ABŞ-ın Xəzinədarlıq Departamentinin müvafiq qaydalarına əsasən ixtisaslaşdırılmış kollektiv investisiya aləti olan İnvestisiya təşkilatında;

Azərbaycan Respublikasının Maliyyə İnstitutu olan istənilən İnvestisiya təşkilatının (kollektiv investisiya alətində iştirak payının saxlanıldığı Maliyyə İnstitutlarından başqa) hesabat vermə öhdəlikləri yerinə yetirilmiş hesab ediləcəkdir.

3. Sazişin 5-ci maddəsinin 3-cü bəndinin tələblərinə uyğun olaraq bu bölmənin E və ya F(2) yarımbəndlərində göstərilməyən Azərbaycan Respublikasında təsis edilmiş İnvestisiya təşkilatındakı iştirak payları ilə bağlı bütün digər İnvestisiya təşkilatlarının hesabat vermə öhdəlikləri, Sazişə müvafiq olaraq həmin iştirak payları üzrə birinci

qeyd edilmiş İnvestisiya təşkilatı tərəfindən hesabat verilməli məlumat onun özü və ya digər şəxs tərəfindən verildiyi təqdirdə yerinə yetirilmiş hesab edilməlidir.

V. **Maliyyə Hesablarından çıxarılan Hesablar.** Aşağıdakı hesablar Maliyyə Hesabları anlayışından çıxarılmışdır və buna görə də ABŞ-ın Hesabat Verilməli Hesabları kimi qəbul edilməməlidir.

A. **Müəyyən Əmanət Hesabları.**

1. Təqaüd və Pensiya Hesabı. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasında saxlanılan təqaüd və pensiya hesabları.

   a) Hesab təqaüd və ya pensiyanın (əlilliyə və ölümə görə müavinətlər daxil olmaqla) verilməsi üçün şəxsi təqaüd hesabı kimi tənzimlənir və ya qeydiyyatdan keçmiş və ya tənzimlənən təqaüd və ya pensiya planının bir hissəsi sayılır;

   b) Hesab üzrə vergi güzəştləri mövcuddur (yəni hesaba daxil olan və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq başqa halda vergi tutulmalı olan ödənişlər vergitutma bazasının hesablanması zamanı nəzərə alınmır və ya hesab sahibinin ümumi gəlirindən çıxılır və ya aşağı dərəcə ilə vergiyə cəlb edilir və ya hesab üzrə investisiya gəlirindən verginin tutulmasına möhlət verilir və ya aşağı dərəcə ilə vergi tutulur);

   c) Hesabla bağlı Azərbaycan Respublikasının vergi orqanlarına məlumatların illik olaraq ötürülməsi zəruridir;

   d) Vəsaitlərin çıxarılması təqaüd üçün müəyyən edilmiş yaş həddinə çatma, əlillik və ya ölümlə şərtlənir və ya belə xüsusi hallardan qabaq vəsaitlərin çıxarılmasına görə cərimələr tətbiq olunur; və

   e) (i) İllik daxilolmalar 50,000 ABŞ dolları və ya daha aşağı məbləğlə məhdudlaşdırılır və ya (ii) 1,000,000 ABŞ dolları və ya daha aşağı məbləğdə olan hesaba bütün müddət üçün maksimum daxilolma məhdudiyyəti mövcuddur, hər bir halda hesabın toplanılması və valyuta mübadiləsi üçün 1 saylı Əlavədə verilmiş qaydalar tətbiq olunur.

2. Təqaüd hesabı olmayan əmanət hesabları. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasında saxlanılan hesab (sığorta və ya Annuitet sığortası müqaviləsi istisna olmaqla).

   a) Hesab təqaüddən fərqli məqsədlər üçün əmanət mexanizmi kimi tənzimlənir;

   b) Hesab üzrə vergi güzəştləri mövcuddur (yəni hesaba daxil olan və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq başqa halda vergi tutulmalı olan ödənişlər vergitutma bazasının hesablanması zamanı nəzərə alınmır və ya hesab sahibinin ümumi gəlirindən çıxılır və ya aşağı dərəcə ilə vergiyə cəlb edilir və ya hesab üzrə investisiya gəlirindən verginin tutulmasına möhlət verilir və ya aşağı dərəcə ilə vergi tutulur);

c) Vəsaitlərin çıxarılması əmanət hesabının məqsədləri baxımından xüsusi meyarlara cavab verilməsi ilə (misal üçün, təhsil və tibbi yardım üzrə müavinətin təmin edilməsi) şərtlənir və ya bu cür meyarlara cavab verilməsindən qabaq vəsaitlərin çıxarılmasına görə cərimələr tətbiq olunur; və

d) Hesabın toplanılması və valyuta mübadiləsi üçün 1 saylı Əlavədə verilmiş qaydaların tətbiq edilməsilə illik daxilolmalar 50,000 ABŞ dolları həddində və ya daha az məbləğlə məhdudlaşdırılır.

B. **Müəyyən müddətə həyatın sığortası müqavilələri.** Müqavilənin aşağıdakı tələblərə cavab verməsi şərtilə, Azərbaycan Respublikasında icra edilən və sığortalanan şəxsin 90 yaşı olana qədər başa çatan dövrü əhatə edən həyatın sığortası müqaviləsi:

1. Müddət keçdikcə azalmayan və müqavilənin qüvvədə olduğu müddətdə və ya sığortalanan şəxsin 90 yaşı olanadək (hansı qısa olarsa) ən azı hər il ödənilən dövrü ödənişlər;

2. Müqaviləni ləğv etmədən hər hansı müqavilə üzrə əldə edə biləcəyi (vəsaitlərin çıxarılması, kredit və ya başqa formada) heç bir dəyər yoxdur;

3. Müqavilənin ləğv edilməsi və ya müddətinin bitməsinə görə ödənilən məbləğ (ölümə görə müavinətdən başqa) müqavilənin qüvvədə olduğu müddət və ya dövrlər üçün ölümə, xəstəliyə görə məbləğ və xərclər (faktiki qoyulmasından asılı olmayaraq) və ya müqavilənin ləğv edilməsindən və ya müddətinin bitməsindən qabaq edilmiş ödənilmiş hər hansı məbləğ çıxılmaqla, müqavilə üzrə ümumi məbləği keçə bilməz; və

4. Hüququn ötürüldüyü şəxs müqavilədə əvəzli olaraq tərəf kimi çıxış etmir.

C. **Əmlak Hesabı.** Bu cür hesab üzrə ölən şəxsin vəsiyyətnaməsinin və ya ölüm haqqında şəhadətnamənin surətini ehtiva edən sənədləşmə olarsa, Azərbaycan Respublikasında yalnız əmlaka görə saxlanılan hesab.

D. **Şərti depozit hesabı.** Aşağıdakılardan hər hansı biri ilə bağlı açılmış Azərbaycan Respublikasında saxlanılan hesab:

1. Məhkəmə qərarı və ya hökmü.

2. Hesabın aşağıdakı tələblərə cavab verməsi şərti ilə daşınmaz və ya daşınar əmlakın satışı, dəyişdirilməsi və ya icarəsi:

a) Hesab yalnız ilkin ödəniş, avans, birbaşa tranzaksiya ilə bağlı öhdəliyin təmin edilməsi üçün müvafiq məbləğdə depozit və ya oxşar ödəniş və ya əmlakın satışı, dəyişdirilməsi və icarəsi ilə bağlı hesabda yerləşdirilmiş maliyyə vəsaitləri ilə maliyyələşdirilir;

b) Hesab yalnız alıcının əmlakın satış qiymətini ödəmək, satıcının şərti öhdəliklərini ödəmək və ya icarə müqaviləsi əsasında icarəyə verilmiş əmlaka dəyən hər hansı

zərərin icarəyə verən və ya icarəçi tərəfindən ödənilməsi öhdəliyini təmin etmək üçün açılır və istifadə edilir;

c) Əmlak satıldıqda, dəyişdirildikdə və ya ondan imtina edildikdə və ya icarə ləğv edildikdə, hesabdakı vəsaitlər və ondan əldə edilən gəlirlər alıcı, satıcı, icarəyə verən və ya icarəçinin (bu cür şəxslərin öhdəliyinin icrasını təmin etmək daxil olmaqla) xeyrinə ödənilir və ya başqa cür paylanır;
d) Hesab maliyyə aktivlərinin satışı və ya mübadiləsi ilə əlaqədar olaraq açılmış marjinal hesab və ya buna oxşar hesab deyil;

e) Hesab kredit kartı hesabı ilə əlaqəli deyil.

3. Daşınmaz əmlakla təmin edilən kredit ödənişi edən Maliyyə İnstitutunun daha sonra yalnız daşınmaz əmlakla bağlı vergilər və sığorta üzrə ödənişlərin edilməsini asanlaşdırmaq üçün ödənişin bir hissəsini kənara qoymaq öhdəliyi.

4. Maliyyə İnstitutunun daha sonra yalnız vergilərin ödənilməsini asanlaşdırmaq öhdəliyi.

E. **Tərəfdaş Yurisdiksiyada Hesablar.** FATCA-nın həyata keçirilməsini asanlaşdırmaq üçün Azərbaycan Respublikasında olan və ABŞ ilə digər Tərəfdaş Yurisdiksiya arasında bağlanmış müqaviləyə əsasən Maliyyə Hesabı anlayışına daxil olmayan hesabı ehtiva edir, bu şərtlə ki bu cür hesab həmin Tərəfdaş Yurisdiksiyada açılmış və həmin Tərəfdaş Yurisdiksiyada olan Maliyyə İnstitutunda mövcud olsa idi, həmin Tərəfdaş Yurisdiksiyasının qanunvericiliyinə əsasən eyni tələblərə və nəzarətə məruz qalmış olsun.

VI. **Anlayışlar.** Aşağıdakı əlavə anlayışlar yuxarıda göstərilənlərə tətbiq olunacaqdır:

A. **Model 1 üzrə Hesabat Verən Xarici Maliyyə İnstitutu.** Model 1 üzrə Hesabat Verən Xarici Maliyyə İnstitutu dedikdə, qeyri-ABŞ hökuməti və ya onun qurumu tərəfindən Model 1 IGA sazişinə uyğun olaraq barəsində məlumatların əldə edilməsinə və mübadilə edilməsinə razılıq verilən, Model 1 IGA çərçivəsində İştirakçı olmayan Maliyyə İnstitutu kimi qiymətləndirilən Maliyyə İnstitutundan fərqli Maliyyə İnstitutu nəzərdə tutulur. Bu məqsədlə Model 1 IGA termini Birləşmiş Ştatlar və ya Xəzinədarlıq idarəsi ilə qeyri-ABŞ hökuməti və ya onun bir və ya daha artıq qurumları arasında sonradan belə məlumatların IRS-ə avtomatik qaydada verilməsilə, Maliyyə İnstitutları tərəfindən bu cür qeyri-ABŞ hökuməti və ya onun qurumlarına məlumatların verilməsi vasitəsilə FATCA-nın tətbiqi üzrə razılaşmanı bildirir.

B. **İştirakçı Xarici Maliyyə İnstitutu.** İştirakçı Xarici Maliyyə İnstitutu dedikdə, Xarici Maliyyə İnstitutu müqaviləsinin tələblərinə əməl etməyə razılıq vermiş Model 2 IGA-də verilən Maliyyə İnstitutları daxil olmaqla, Xarici Maliyyə İnstitutu müqaviləsinin tələblərinə əməl etməyə razılıq vermiş Maliyyə İnstitutu nəzərdə tutulur. İştirakçı Xarici Maliyyə İnstitutu ifadəsi, əgər ABŞ-ın Hesabat Verən Maliyyə İnstitutunun ixtisaslaşdırılmış vasitəçisi olan filialı Model 1 üzrə Hesabat Verən Xarici Maliyyə İnstitutu deyilsə, bu cür filialı da ehtiva edir. Bu məqsədlə Xarici Maliyyə İnstitutu müqaviləsi anlayışı ABŞ Daxili Gəlirlər Məcəlləsinin 1471 (b) bölməsinin tələblərinə əməl edən kimi qiymətləndirilməsindən ötrü Maliyyə İnstitutu üçün tələblər müəyyən edən razılaşmanı bildirir. Bununla yanaşı, bu

anlayışın məqsədləri üçün Model 2 IGA termini Birləşmiş Ştatlar və ya Xəzinədarlıq idarəsi ilə qeyri-ABŞ hökuməti və ya onun bir və ya daha artıq qurumları arasında Xarici Maliyyə İnstitutu müqaviləsinin tələblərinə uyğun olaraq Maliyyə İnstitutları tərəfindən birbaşa IRS-ə hesabat verilməsi vasitəsilə bu cür qeyri-ABŞ hökuməti və ya onun qurumu və IRS arasında məlumatın mübadiləsi ilə tamamlanan FATCA-nın həyata keçirilməsini sadələşdirmək üzrə razılaşmanı ifadə edir.